# QARABAĞ AZƏRBAYCANDIR!



"Bakı və İrəvan sülh müqaviləsinin bəndləri üzrə razılığa gəliblər"

5

SƏS

№ 187 (6628) 13 oktyabr 2022-ci il. Qiymәti 60 qәpik

## "Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini davamlı şəkildə dəstəkləyir"

3



7

# Ermənistanın düşünməsi üçün VAXT BELƏ QALMAYIB



## MEDİA və Mətbuat Şurasının birgə brifinqi keçirilib



5

## Zeytunçuluq: Potensial və perspektivlər nə vəd edir?



9

## Kitab yarmarkalarının əhəmiyyəti nədir?



16



## 154 erməni Gəncəyə niyə gəlir?




## Baş prokuror: "Gəncə terrorunu törədənlər axtarışa verilib"

# Azərbaycan - Qırğızıstan: Qardaşlıq və dostluğun əsl nümunəsi!

*Qırğız Respublikasında dövlət səfərində olan Prezident İlham Əliyev bir sıra açılışlarda iştirak edib*







***Oktyabrın 12-də Bişkekdə Nizami Gəncəvi adına 103 saylı məktəbin açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov açılış mərasimində iştirak ediblər. Dövlət başçıları məktəbin rəmzi açılışını bildirən lenti kəsdilər. Sonra Prezident İlham Əliyev və Prezident Sadır Japarov məktəblə tanış oldular.***







Məlumat verildi ki, Nizami Gəncəvi adına 103 saylı məktəbin ərazisi 6 hektardan çoxdur. Məktəb binasında 30 sinif otağı, oxu zalı, kitabxana, informatika, biologiya, kimya, coğrafiya, texnologiya, tarix kabinetləri, idman zalı, 240 yerlik akt zalı var. Bundan əlavə, məktəbin həyətində tennis kortu, basketbol, voleybol və futbol meydançaları yaradılıb.

Bildirildi ki, məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmaq, həmçinin elmin sirlərinə yiyələnmək üçün hərtərəfli şərait yaradılıb.

Oktyabrın 12-də Bişkekdə Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov açılış mərasimində iştirak ediblər. Dövlət başçıları açılış mərasimində çıxış ediblər.

"Mən Heydər Əliyevin xatirəsinə belə yanaşmaya görə bir daha Qırğızıstan Prezidentinə, qardaş Qırğız xalqına təşəkkürümü bildirirəm. Heydər Əliyev adına və Nizami Gəncəvi adına məktəblərin müəllim və şagirdlərini Azərbaycana dəvət edirəm." Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılış mərasimində bildirib.

Dövlətimizin başçısı səfərlə bağlı müvafiq göstərişlər verdiyini qeyd edərək deyib: "Biz sizin səfərinizi, Bakıda, arzulasanız Azərbaycanın digər yerlərində qalmağınızı təşkil edəcəyik. Fikrimcə, bütövlükdə, bizim tədris müəssisələri ilə belə münasibətlərin, əlaqələrin yaradılması işlərinə artıq indi başlamaq lazımdır. Bu, bizim gəncləri əməkdaşlıq, qardaşlıq, dostluq ruhunda tərbiyə edəcək. Bu, bizi qarşılıqlı olaraq zənginləşdirəcək".

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanlıların müasir nəslinin tərbiyəsində Heydər Əliyevin rolu öz mənbəyini hələ sovet vaxtlarından götürür. O vaxt Azərbaycan keçmiş SSRİ-də yeganə respublika idi ki, Heydər Əliyevin təkidi ilə minə yaxın azərbaycanlı gənc oğlan və qızı SSRİ-nin ali məktəblərinə göndərmək hüququ qazanmışdı. "Bununla da kadr potensialı yaranırdı ki, bu gün Azərbaycanda ona tələbat olduqca çoxdur. Sizin diqqətinizə onu da çatdırmaq istəyirəm ki, Heydər Əliyev tərəfindən əsası qoyulan hərbi quruculuq işi də bu gün bizə öz ərazilərimizi uğurla müdafiə etmək imkanı verir", - deyə dövlətimizin başçısı vurğulayıb.

Ardı Səh. 3

# Azərbaycan - Qırğızıstan: Qardaşlıq və dostluğun əsl nümunəsi!

*Qırğız Respublikasında dövlət səfərində olan Prezident İlham Əliyev bir sıra açılışlarda iştirak edib*




Əvvəli-Səh-2

Məhz Heydər Əliyevin qərarı ilə 1970-ci illərdə Bakıda general Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradıldığını xatırladan Azərbaycan Prezidenti deyib: "Bu, Heydər Əliyevin uzaqgörənliyi, gələcəyə istiqamətlənən fəaliyyətidir. Sanki o, qabaqcadan görürdü ki, Azərbaycan gözəl bir gündə müstəqil dövlətə çevriləcək, bizə ordu lazım olacaq, bizə mütəxəssislər lazım olacaq. Belə də oldu və biz hər bir situasiyaya hazır olmalıyıq. Biz bugünkü Azərbaycanın Heydər Əliyevin əsəri olduğunu deyəndə tamamilə haqlıyıq və onun yolu ilə gedirik."

Dövlətimizin başçısı deyib ki, biz Heydər Əliyevin davamçılarıyıq: "Əlbəttə, vəziyyətin spesifikası nəzərə alınmaqla, dəyişən dünya nəzərə alınmaqla, Azərbaycanın müasir imkanları nəzərə alınmaqla və qarşımızda duran çağırışlar nəzərə alınmaqla onun yolu ilə gedirik. Onun bizə qoyub getdiyi vəsiyyətlərdən biri ərazi bütövlüyünün bərpası idi ki, bunu iki il əvvəl şərəflə yerinə yetirmişik.

Biz uçurum kənarında idik, qonşu ölkənin hərbi təcavüzü nəticəsində təkcə əraziləri itirmirdik, həm də hərc-mərclik və qardaş qırğını, vətəndaş müharibəsi faciəsi ilə üz-üzə idik."

Ən ağır müharibənin vətəndaş müharibəsi olduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Təəssüf ki, Azərbaycan xalqı bunun acısını çəkib. Yalnız Heydər Əliyevin qətiyyəti və Azərbaycan xalqının ona inamı sayəsində o, qardaş qırğınını dayandırdı, Azərbaycanın iflasa sürüklənməsinin, gənc respublikamızın parçalanmasının qarşısını aldı, Azərbaycanı inkişaf yoluna qoydu, sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsinə, investisiyaların cəlbinə, müasir Azərbaycan Ordusunun təməlini qoymağa nail oldu".

"Heydər Əliyevin çox zəngin siyasi və dövlətçilik təcrübəsi, xalqın mənafeyinin müdafiəsində qətiyyəti və prinsipiallığı, müdrikliyi və yüksək insani keyfiyyətləri haqlı olaraq ona Azərbaycanın hüdudlarından kənarda da hörmət qazandırıb." Bu fikirləri də Qırğızıstan Prezidenti Sadır Japarov Bişkekdə Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılış mərasimində deyib.

Prezident Sadır Japarov ümidvar olduğunu bildirib ki, gələcəkdə bu məktəbdən Heydər Əliyev kimi şəxsiyyətlər çıxacaq: "Heç bir şübhə yoxdur ki, bizim gənc soydaşlarımız qardaş xalqlarımız və ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəm körpüsünə çevriləcəklər".

Qırğızıstan Prezidenti Gənclərə gözəl təhsil, tərbiyə almağı, gərəkli olmağı, Qırğızıstan və Azərbaycan arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsi işinə öz töhfələrini verməyi arzulayaraq Heydər Əliyevin bu sözlərini xatırladıb: "Bizim cəmiyyətin gələcək tərəqqisi bu gün bizim gənclərimizə nəyi və necə öyrətməyimizdən çox asılı olacaq". Prezident Sadır Japarov əminliklə deyib ki, bu gözəl məktəbin divarları arasında uşaqlar keyfiyyətli təhsil, vətənpərvər və işinin peşəkarı kimi tərbiyə alacaqlar.

Dünən həmçinin Bişkekdəki "Ala-Arça" Dövlət Təbiət Parkında mədəni proqram təşkil olunub. Prezident İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov tədbirdə iştirak ediblər.

Mədəni proqramda Qırğız xalqının milli adət və ənənələri geniş nümayiş olundu. Qırğız sənətkarları buradakı xiyabanda Azərbaycanın və Qırğızıstanın dövlət başçılarına əl işlərini, milli xalçalar - "Şırdak"ı təqdim etdilər. Dövlət başçıları milli xalçalar istehsal edilən emalatxanalarla tanış oldular. Burada Qırğız xalqının milli mətbəxindən nümunələr də təqdim edildi. Prezidentlər, həmçinin milli geyim kolleksiyalarından ibarət sərgiyə baxdılar. Dövlət başçılarına ənənəvi "Salbuurun" ovunun elementləri də nümayiş etdirildi.

# "Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini davamlı şəkildə dəstəkləyir"

*Azərbaycan Prezidenti İlham Əliyevin Astanada Pakistanın Baş naziri ilə görüşü olub*



Dünən Qazaxıstana işgüzar səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astanada Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şəriflə görüşü olub.Prezident İlham Əliyev Səmərqənddəki görüşdən bir ay sonra Astanada keçirilən bu görüşün ölkələrimiz arasında əlaqələrin dinamikliyini bir daha göstərdiyini bildirdi.

Dövlətimizin başçısı ilə Səmərqənddəki görüşünü məmnunluqla xatırlayan Baş nazir Şahbaz Şərif Prezident İlham Əliyevi Pakistana səfərə dəvət etdi.

Azərbaycan Prezidenti Pakistana səfər etmək niyyətində olduğunu bildirdi və öz növbəsində Baş nazir Şahbaz Şərifi ölkəmizə səfərə dəvət etdi. Pakistanın Baş naziri Azərbaycana məmnuniyyətlə səfər etmək niyyətində olduğunu dedi.

Şahbaz Şərif Pakistan xalqına göstərdiyi yardıma görə dövlətimizin başçısına təşəkkürünü ifadə etdi və ölkəsinin baş vermiş selin nəticələrindən hələ də əziyyət çəkdiyini bildirdi.

Baş nazir Şahbaz Şərif keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Pakistanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini davamlı şəkildə dəstəklədiyini qeyd etdi.

Dövlətimizin başçısı Pakistanın mövqeyinə görə təşəkkürünü bildirdi, Azərbaycanın da Cəmmu və Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini daim dəstəklədiyini vurğuladı. Baş nazir Şahbaz Şərif Azərbaycanın bu ədalətli mövqeyinə görə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üzrə ölkəmizin təkliflərini diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, əgər Ermənistan tərəfindən siyasi iradə nümayiş olunarsa, tezliklə sülh müqaviləsi imzalana bilər.

Görüş əsnasında Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlığının önəmi vurğulandı. Bu çərçivədə əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyəti qeyd olundu. Eyni zamanda, ölkələrimiz arasında hərbi-texniki, ticarət, enerji, kənd təsərrüfatı, nəqliyyat-logistika sahələrində əməkdaşlığın dərinləşdirilməsi məsələlərinə toxunuldu və bu istiqamətdə müzakirələr aparıldı.



# 15 OKTYABR 2003-CÜ İL - Xalqın iradəsi və istəyinin reallaşdığı gün

Müasir Azərbaycan dövlətinin siyasi yüksəlişinin növbəti mərhələyə keçid etməsindən, möhtərəm cənab İlham Əliyevin ilk dəfə prezident seçilməsindən, 19 il ötür. 2003-cü ilin 15 oktyabr tarixində demokratik qaydada keçirilən seçkilərdə səsvermə hüququna malik olan vətəndaşların 71.5%-i (3,046,401 vətəndaş) iştirak etmişdir. Seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi partiya Sədrinin birinci müavini, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev olmuşdur. Azad, ədalətli və şəffaf şəkildə keçirilən seçkilərdə İlham Əliyev ümumi seçicilərin 2 milyon 438 min 787 nəfərin səsini qazanaraq, yəni 76.84% faizdən çox səs toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident İlham Əliyev bundan öncə Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı olmuş, AŞPA-da Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı və AŞPA-nın vitse-spikeri və Büro üzvü vəzifələrində səmərəli fəaliyyət göstərmişdir. Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə alınaraq İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur. Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən cənab İlham Əliyev, həm də görkəmli partiya xadimidir. O, YAP-ın I qurultayında (1999) partiya sədrinin müavini, II qurultayında (2001) isə birinci müavini seçilmişdir. Bu mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev əhalinin geniş kütlələrinin Yeni Azərbaycanın quruculuğuna səfərbər olunmasında olduqca səmərəli fəaliyyət göstərmişdir. Həmçinin 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına cənab İlham Əliyev başçılıq etmişdir. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə parlaq qələbə çalmış və Milli Məclisdə böyük əksəriyyəti qazanmışdır. Bütün bu uğurlu fəaliyyətlər isə cənab İlham Əliyevin seçkilərdə qalib gəlməsini şərtləndirən ən əsas amillər olmuşdur.



*2003-cü ilin 15 oktyabr tarixində Cənab İlham Əliyevin Prezident seçilməsi...*

### Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm

Bəli, dahi lider Heydər Əliyev bilirdi ki, liderlik bacarığı elə siyasətçilərə məxsusdur ki, onlar xalqının, dövlətinin milli maraqlarını qorumaqla yanaşı, həm də öz ölkəsini davamlı şəkildə inkişaf etdirir, yorulmadan irəliyə doğru apara bilir. Bu mənada Azərbaycan xalqı da çox xoşbəxtdir ki, ölkəmizə uzun müddət dünya siyasətinin fenomeni, bütün həyatını canından artıq sevdiyi doğma xalqına həsr etmiş Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik etmişdir. Məhz ona özü qədər inandığını və Azərbaycanın gələcəyinə böyük ümidlər bəslədiyinin nəticəsləri bu gün bütün dünya görür.Və bu gün ümummilli liderimiz Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi prioritetlər, dövlətçiliyimizin hərtərfli inkişaf konsepsiyası onun layiqli davamçısı, möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün bunların sayəsində illərdir ki, ölkəmiz intibah və çiçəklənmə dövrünü yaşayır. 2003-cü ilin prezident seçkiləri ərəfəsində ulu öndər Heydər Əliyev sevimli xalqına etdiyi tarixi müraciətində əminliklə demişdi: ”İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

### Reallaşan vədlər...

Cənab İlham Əliyev 2003-cü ildə Prezident seçilərkən Azərbaycan həlli müşkül görünən bir sıra problemlərlə üz-üzə idi. O vaxt ölkə hələ yeni-yeni dirçəlirdi, işsizlik, məcburi köçkünlərin acınacaqlı halı, bölgələrin inkişafdan geri qalması, əhalinin sosial vəziyyəti ciddi narahatlıq doğururdu. Prezidentin ilk vədi bu oldu: ölkədə yüz minlərlə yeni iş yeri yaradılacaq. Ötən illər ərzində 2 milyondan çox iş yeri yaradıldı. İşsizlik səviyyəsi 40 faizdən 5 faizə endi. Ölkə Prezidenti deyirdi: ”Azərbaycanda bir dənə də olsun çadır düşərgəsi qalmayacaq”. Çox keçmədən axırıncı çadır düşərgəsi ləğv olundu.Ən əsas məsələ isə bütün dünyanı bürüyən COVID-19 pandemiyasıdır ki, bu gün Azərbaycan pandemiyaya qarşı mübarizədə göstərdiyi nümunə diqqətəlayiqdir. Belə ki, Azərbaycanda koronavirus pandemiyasından bir qədər əvvəl həyatın bütün sahələrinə təsir göstərən böyük islahatlar elan edildi və qısa müddətdə həyata keçirildi. Azərbaycanda bütün sahələrdə sabitlik təmin edildi, əhalinin məşğulluq problemləri müsbət həllini tapdı və sadə vətəndaşın rifah halı iqtisadi inkişafının əsas prioritetlərindən birinə çevrildi. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə vaxtında aparılan düzgün siyasət və atılan zəruri addımlar tektonik fəlakət zamanı öz sözünü deyə bildi.

### Cənab İlham Əliyev və siyasi varisliyin təntənəsi

”Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”,-deyən Azərbaycan Prezidenti İlham Əliyevin qalib lider olaraq bütün öhdəliklərini reallaşdırmaqdadır.Məhz Heydər Əliyev dühası və onun varisi İlham Əliyevin idarəetmə bacarığı sayəsində Azərbaycan bütün təhdidlərə rəğmən hazırda dünyanın ən islahatçı, sabit inkişaf edən və real müstəqilliyi olan ölkələrindən biridir. İlham Əliyev təkcə dünənin və bu günün deyil, həm də gələcəyin lideridir.Prezident İlham Əliyevin rəhbərliyi ilə idarəetmədə aparılan islahatlarda əvvəlcə məmur-vətəndaş təmaslarından elektrona, indi isə elektrondan rəqəmsala keçid baş verir. Eyni zamanda, dövlət idarəetmə islahatları məcburetmədədən könüllü riayətə, imperativ idarəetmədən tənzimlənməyə, yoxlamadan monitorinq və qiymətləndirməyə və ”kölgə iqtisadiyyat”dan leqallaşmaya keçidi təmin edir. Çünki İlham Əliyevin dövlətlə, dövlətin inkişafı ilə bağlı baxışları məlumdur. Onun bütün başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən say-seçmə ölkələr birliyinə daxil etməkdir. O, fəaliyyətində ardıcıl və praqmatikdir, rasional və səmimidir. Onu fərqləndirən cəhət budur. Cənab İlham Əliyev fəaliyyət dairəsi məhdud olan məmur deyil, əksinə, geniş baxışlara malik siyasətçidir. Onun üstünlüyü bundadır. Bütün bunlar cənab İlham Əliyevə Azərbaycanı arzuladığı və bəyan etdiyi kimi müasir dövlətə, əhalisinin sosial rifah halında cəmiyyətə çevrilməsinə imkan verəcəkdir.Son 19 il - qalibin məğlub üzərində qələbəsinin qalib lideri İlham Əliyev

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı necə mahir doplomat və sərkərdə qabliyyətini ortaya qoydu. 30 ilə yaxın zaman müddətində həll olunmayan qondarma ”Dağlıq Qarabağ” probleminin 44 gün ərzində həll olunması ilə 2020-ci il tariximizə Qələbə ili ilə Azərbaycan tarixinə yazıldı. Və Azərbaycan 44 gündə son əsrlərin ən böyük zəfərini yaşayır və ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını qaytarmağa nail oldu. Vətən Müharibəsinin 44 gün ərzində ”Qarabağ Azəbaycandır və QƏLƏBƏ NİDA”-sını qoyan və bununla da tariximizə ən parlaq səhifəsini yazmaqla bir daha sübut etdi ki, bu qalibin məğlub üzərindəki - Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin diplomatik və qətiyyətli siyasətinin, Güclü Ordumuzun, Rəşadətli əsgər və zabitlərimizin qələbəsidir. Bu, haqqın qələbəsidir. Bu, Azərbaycan xalqının qələbəsidir.Bu sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilən tarixi qələbəsidir! Azərbaycan xalqı öz Liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirməklə yanaşı Ali Baş Komandanımız 44-cü günün son həftə sevincini də xalqına çatdıran Azərbaycan Prezidenti İlham Əliyev cənablarının ”Biz öz Vətənimizə, doğma Qarabağımıza qaydırıq!” xəbəri Azərbaycan xalqına verdiyi ən böyük müjdəsidir!

### ”Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, ”Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: ”Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”.Bu 44 gün həm də Ulu Öndər Heydər Əliyevin Prezident İlham Əliyev haqqında dediyi ”Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” fikirlərin hər keçən gün bir daha öz təsdiqini tapır.Bəli, bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. 44 günlük Zəfər Qələbəsi ”Qarabağ Azərbaycandır və nida işarəsi”-söyləyən Prezidentimiz son 19 ildə - hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdiyinin sübutudur. Ən əsası isə, noyabrın 10-u xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazılan tarixidir.

### ”Bir qarış torpağımızı belə heç kəsə verən deyilik - Qarabağ Azərbaycandır!”

Bəli, son 19-il Prezidentlik fəaliyyəti ərzində Ali Baş Komandanımız ”bir qarış torpağımızı belə heç kəsə verən deyilik” xəbərdarlığının bu gün Azərbaycan xalqı, bütün dünya bir daha gördü ki, Qarabağ Azərbaycandır!”Qarabağ Azərbaycandır və nida” ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrilib. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi” deyən Müzəffər Ali Baş Komandan bu gün apardığı uğurlu, diplomatik siyasəti ilə sübut etdi: ”Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!”.

Beləliklə güclü xalq, dövlət başçımız İlham Əliyev cənabları hər dəfə Prezidentt seçilməklə güclü dövlət, güclü lider vəhdəti müstəqil və müasir Azərbaycanın qüdrətinə çevrildi, 2003-cü il 15 oktyabr prezident seçkiləri ölkəmiz üçün əsil uğur təntənəsi olaraq zamanın axarında öz layiqli yerini tutan Azərbaycan bundan sonra da möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcək.

***RƏFİQƏ KAMALQIZI***

# Torpaq müqabilində su



## Qırğızıstan enerji böhranından əvvəl Özbəkistanla sərhəd məsələlərini həll etməyə tələsir

BAXIŞ BUCAĞI

Qırğızıstan hakimiyyəti əvvəllər verdikləri vədləri yerinə yetirməyə, qonşu ölkələrlə - Özbəkistan və Tacikistanla sərhəd məsələlərini tezliklə həll etməyə tələsir. Bu, ölkə sakinləri arasında növbəti narazılıq dalğasına səbəb olub. Onlar Kempir-Abad (Əndican) su anbarının Özbəkistana verilməsindən hiddətlənir və icazəsiz mitinqlərdə bütün mümkün vasitələrlə torpaqlarını qoruyacaqlarına söz verir, hakimiyyətin kürsüdən salınmasını tələb edirlər. Prezident Sadır Japarov Daşkəndlə imzalanmış müqavilənin pozulacağı təqdirdə üsyançıları sərt şəkildə cəzalandıracağını vəd edib. Eyni zamanda Düşənbədə sərhədin delimitasiyası və demarkasiyası ilə bağlı Qırğızıstan-Tacikistan danışıqları başlayıb. Avropa İttifaqı da bu problemin həllində vasitəçilik xidmətlərini təklif edib.

Sadır Japarov "Kabar" dövlət xəbər agentliyinə müsahibəsində deyib ki, mübahisəli ərazilərin 99%-i Qırğızıstanın xeyrinə həll olunub. Onun sözlərinə görə, çox iş görülüb: "İnanıram ki, xalq hər şeyi öz gözləri ilə görəndə bizi alqışlayacaq".

Lakin su anbarının Özbəkistana verilməsindən xəbər tutan xalq etiraza çıxıb, Daşkəndlə ərazilərin mübadiləsinə dair müqavilənin imzalanmasını dayandırmağı tələb edib, baxmayaraq ki, şərtlər Qırğızıstan üçün kifayət qədər məqbul görünür. Dövlət Milli Təhlükəsizlik Komitəsinin rəhbəri Kamçibek Taşiyevin sözlərinə görə, sazişin şərtlərinə əsasən, Qırğızıstan təxminən 20 min hektar mübahisəli torpaq, Özbəkistan isə 4485 hektar sahəsi olan Kempir-Abad (Əndican) su anbarından su alacaq. Onun sözlərinə görə, "Qırğızıstan Özbəkistana bir metr də olsun torpaq verməyib, hətta torpaqlarını genişləndirib".

"Əvvəllər Kempir-Abad bəndinə yalnız Özbəkistan vətəndaşlarının çıxışı var idi. İndi su anbarı dörd nəfər Qırğızıstandan, dörd nəfər Özbəkistandan olmaqla birgə idarə olunacaq. 70 il ərzində Özbəkistan sudan istifadə ilə bağlı öz qərarını verib. İndi Qırğızıstan vətəndaşları sudan pulsuz istifadə edə biləcəklər, torpağı sulayacaq, balıq yetişdirəcək, mal-qaranın sudan istifadəsi üçün imkanlar qazanacaq, hətta su xətti çəkə biləcəklər. Özbəkistan mühəndis konstruksiyalarını quraşdıra bilməyəcək", - deyə Taşiyev vurğulayıb. Eyni zamanda baş mühafizə zabiti müqavilənin məzmununu təkcə ictimaiyyətdən və jurnalistlərdən deyil, hətta parlament deputatlarından da məxfiləşdirib. Xüsusi komitənin iclası dövlət başçısının tapşırığına uyğun olaraq bağlı qapılar arxasında keçirilib. Məlumat sızmasın deyə, xalq deputatlarına iclas otağına hətta telefon aparmağa icazə verilməyib. MTN rəhbəri bildirib ki, hakimiyyət Özbəkistanla sərhədlər haqqında sazişin tam məlumatını və məzmununu yalnız sənəd iki ölkə prezidentləri tərəfindən imzalandıqdan və parlamentlərdə ratifikasiya edildikdən sonra açıqlayacaq.

Əgər Taşiyevin elan etdiyi şərtlər Qırğızıstan üçün ən yaxşısıdırsa, niyə razılaşma göstərilməsin? Deputatlar, Qırğızıstan ictimaiyyəti və sərhəd kəndlərinin sakinləri niyə qəzəblənirlər? Cənubda və Bişkekdə insanlar sazişə yenidən baxılmasını və hökumətin istefaya göndərilməsini tələb etmək üçün mitinqlər keçirirlər. Cəmiyyətin müqavimətini görən prezident Sadır Japarov qiyamçıları sərt şəkildə cəzalandıracağına söz verib.

"Butun Qırğızıstan" fraksiyasının lideri Adaxan Madumarov Milli Təhlükəsizlik Komitəsinin rəhbərini xalq deputatlarını qorxutmamağa çağırıb. "Burada siz öz çıxışlarınız ilə Özbəkistanla müqavilələri pozanları cəzalandıracağınızı deyirsiniz. Məni cəzalandır. Televiziyaya dəvət et, məni vur. Onda mənim külümü Kempir-Abadın üstünə səp" deyib müqaviləni imzalamamağı tələb edib.

Müxalif siyasətçi Ravşan Jeenbekov hesab edir ki, hakimiyyət informasiyanı öz maraqları naminə manipulyasiya edir. "Fakt budur ki, ərazinin suya dəyişdirilməsi ekvivalentdən uzaqdır. Su həyatdır. Bundan əlavə, qeyd etmək lazımdır ki, Kempir-Abad su anbarı mübahisəli deyildi. Bütün sənədlərə görə, ötən əsrin 60-cı illərindən başlayaraq su anbarı Qırğızıstanın mülkiyyətində olub. Ona görə də insanlar hakimiyyətin mübahisəli ərazilər müqabilində mübahisəsiz əraziləri qonşularına verməsindən narazıdırlar. Obrazlı desək, belə çıxır ki, Qırğızıstan 20 ton dəmiri 5 ton qızıla dəyişir. Hər şeydən əvvəl, ərazilərin mübadiləsini bir şəxs - hətta prezident deyil, Milli Təhlükəsizlik Dövlət Komitəsinin rəhbəri bağlı qapılar arxasında həll edir", deyə qırğız siyasətçisi bildirib.

Onun sözlərinə görə, müxalifət su anbarının Qırğızıstanla Özbəkistan arasında mübahisə predmeti olmadığı üçün imzalanmanı təxirə salmağı və danışıqları davam etdirməyi təklif edir. "Əgər Qırğızıstan hökuməti su anbarını Özbəkistana vermək istəyirsə, o zaman açıq şəkildə edilməlidir, məsələn, ümumxalq səsverməsi keçirilməlidir, burada yeganə məsələ ərazilərin dəyişdirilməsidir: 20 min hektar torpağı 5 min hektarı əhatə edən Su anbarına", - Jeenbekov hesab edir.

Onun fikrincə, hakimiyyət əlavə xallar əldə etmək üçün sərhədin delimitasiyası və demarkasiyası prosesini tez bir zamanda başa çatdırmağa tələsir. Ölkədə vəziyyət ağırdır, enerji böhranı qapıdadır. Artıq kortəbii mitinqlərdə prezidentin və hökumətin istefası tələbləri səslənir. Müqavilənin imzalanması isə vəziyyəti daha da gərginləşdirəcək. "Bu gün Milli Təhlükəsizlik Dövlət Komitəsinin rəhbəri Kamçibek Taşiyev milli təhlükəsizliyə təhdid halına gəlib. Onun xarakteri, davranışı münaqişələrin katalizatoruna çevrilir. Bunu açıq şəkildə bildirdik və prezidentdən onun işdən çıxarılmasını xahiş etdik. Amma təəssüf ki, Japarov onu dəstəkləyir", - siyasətçi bildirib

Etno-Milli Strategiyalar Agentliyinin direktoru Aleksandr Kobrinski diqqəti ona yönəldib ki, xalq sövdələşmə barədə yalnız prezidentlər tərəfindən sərhəd müqaviləsi imzalandıqdan və parlamentlər tərəfindən ratifikasiya edildikdən sonra məlumatlandırılacaq. "Bu, Qırğızıstanda yeni təcrübədir. Qırğızıstan elitası bu məsələlərin təcili həllinə görə mükafatlandırılmış kimi görünür və vəziyyəti kökündən yaxşılaşdırmaq mümkün olmadığını gözləyərək, alınan bonusları nəzərə alaraq qaçış yollarını hazırlayırlar. Sual olunur, bonusları kimdən alıblar? Qonşular o qədər də zəngin deyillər ki, "bulka" paylasınlar. Amma Qərbdə pul var. İndiki vəziyyətdə xaricdəki dostlar təcili olaraq Rusiyanın perimetri ətrafında münaqişələri alovlandırmalıdırlar ki, Moskvanın diqqətini, həm dügücünü Ukraynadan yayındırsınlar", - Kobrinski bildirib.

Onun fikrincə, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bilavasitə diqqətində olan Ermənistan-Azərbaycan sərhədində toqquşmaların yenidən baş verməsi ehtimalı var. Amma orada alınmasa, ən zəif nöqtələr - Tacikistan və Özbəkistanla sərhəd olan Qırğızıstan hədəf seçiləcək. Həmin qüvvələr Orta Asiyada qarşıdurmaları, hərbi toqquşmaları yenidən alovlandırmağa çalışacaqlar.

**V.VƏLİYEV**

## MEDİA və Mətbuat Şurasının birgə brifinqi keçirilib



***Medianın İnkişafı Agentliyinin və Mətbuat Şurasının birgə brifinqi keçirilib. SİA-nın verdiyi məlumata görə, brifinqdə media qurumlarının rəhbərləri və jurnalistlər iştirak edib. Medianın İnkişafı Agentliyinin icraçı direktoru bildirib ki, yaxın günlərdə Media Reyestri tam fəaliyyətə başlayacaq: "MEDİA peşəkarlığın artırılması üçün jurnalistlər üçün təlimlər təşkil edir. İlin sonuna qədər bu təlimlər daha da gücləndiriləcək. Çalışırıq ki, islahatlarımız hər bir sahə üzrə davamlı olsun".***

Tədbir zamanı Mətbuat Şurasının sədri Rəşad Məcid qeyd edib ki, mediada peşəkarlığın artırılması hər birimizin arzusudur: "İctimaiyyət də jurnalistlərin dəyərini bilməlidir: "Cəmiyyətimizdə jurnalist adının qaldırılması istiqamətində çalışmalıyıq".

Daha sonra isə Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurası arasında əməkdaşlıq memorandumu imzalanıb. Sənədin imzalanmasında məqsəd MEDİA Agentliyi və Mətbuat Şurası arasında müştərək layihələrin reallaşdırılması istiqamətində effektiv və faydalı əməkdaşlıq münasibətlərinin qurulması, media mühitinin şəffaflaşdırılması, jurnalistlərin peşəkarlığının və cəmiyyətin media savadlılığının artırılması, etik davranış qaydalarının tətbiqi sahəsində proseslərin stimullaşdırılması və bu məqsədlə digər fəaliyyətlərin koordinasiya edilməsidir.

Memorandumu Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və Mətbuat Şurasının sədri Rəşad Məcid imzalayıblar. Sənədə əsasən, cəmiyyətdə media savadlılığının artırılması sahəsində birgə layihələrin icrası, jurnalistlərin informasiya almaq hüququnun təmin edilməsi istiqamətində imkanların artırılması, mediada dərc olunan və ya yayımlanan informasiyanın məzmununa dair hüquqi tələblərin, həmçinin, Azərbaycan jurnalistlərinin etik davranış qaydalarının tətbiqi istiqamətində maarifləndirici tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Əməkdaşlıq memorandumu Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivlərinin artırılmasını, xarici təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə tədbirlər görülməsini, bu istiqamətdə birgə layihələr, konfranslar, təlimlər və seminarların təşkilini əhatə edir. Daha sonra Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və Mətbuat Şurasının sədri Rəşad Məcid jurnalistlərin suallarını cavablandırıblar.

**Arzu Qurbanlı**

## "Bakı və İrəvan sülh müqaviləsinin bəndləri üzrə razılığa gəliblər"



Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu TVnet-ə müsahibəsində bildirib ki, Azərbaycan və Ermənistan sülh müqaviləsinin fundamental bəndləri üzrə razılığa gəliblər. "Əsas məqamlar üzrə (onlar beşdir - M.Ç) razılıq əldə olundu. Buraya bir-birinin ərazi bütövlüyünün tanınması, sərhədlərin demarkasiyası və s. daxildir. Yalnız onları həyata keçirmək qalır", - deyə açıqlamada deyilir. O, həmçinin əlavə edib ki, Ankara ilə İrəvan arasında münasibətlərin normallaşması prosesi və Bakı ilə İrəvan arasında sülh müqaviləsi üzrə danışıqlar bir-birindən ayrı gedə bilməz.

# "Prezident İlham Əliyevin siyasətində təhsilin inkişafı prioritetdir"



## "Təhsil-gələcəyin inkişaf faktoru: VUCA dünyası və yeni təhsil paradiqması" mövzusunda tədbir keçirilib

Oktyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin və partiyanın Yasamal rayon təşkilatının birgə təşəbbüsü ilə "Təhsil-gələcəyin inkişaf faktoru: VUCA dünyası və yeni təhsil paradiqması" mövzusunda tədbir keçirilib.

Tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev mövzunun aktuallığından bəhs edib.





Sonra çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Azərbaycan təhsilinin inkişafından danışıb. Dövlətin bu sahəyə xüsusi diqqət göstərdiyini deyən Arif Rəhimzadə bildirib ki, Prezident İlham Əliyevin siyasətində təhsilin inkişafı prioritetdir.

Azərbaycan təhsilinin inkişafında ulu öndər Heydər Əliyevin xidmətlərindən bəhs edən YAP Veteranlar Şurasının sədri hələ sovetlər ittifaqı dövründə Heydər Əliyevin təşəbbüsü ilə minlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrinə ali təhsil almağa göndərildiyini xatırladıb. Onun sözlərinə görə, Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin təsdiq etdiyi dövlət proqramları əsasında yüzlərlə gəncimiz dünyanın nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilib. Təhsilini başa vurub ölkəmizə peşəkar mütəxəssislər kimi qayıdan həmin gənclər qazandıqları biliklərlə müxtəlif sahələrin inkişafına mühüm töhfə verirlər.

Daha sonra YAP Veteranlar Şurasının üzvü, Əməkdar müəllim Asif Cahangirov "Təhsil-gələcəyin inkişaf faktoru: VUCA dünyası və yeni təhsil paradiqması" mövzusunda məruzə ilə çıxış edib. Asif Cahangirov slaydlar vasitəsilə Azərbaycan təhsilinin keçdiyi inkişaf yolu və müasir çağırışlar, təhsilin inkişafında dünya təcrübəsini təqdim edib. "VUCA dünyası" ifadəsinə gəlincə, məruzəçi qeyd edib ki, burada cəmiyyətdəki, o cümlədən təhsildəki dəyişikliklər, qeyri-stabillik, mürəkkəblik və qeyri-müəyyənlik nəzərdə tutulur. Onun sözlərinə görə, qloballaşan dünyanın reallıqları təhsildə də yeniliklərin tətbiq olunmasını zəruri edir. Bu baxımdan, Azərbaycan təhsilində də innovativ inkişafa üstünlük verilir.

Tədbirdə mövzu ilə bağlı YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva, Bakı şəhəri üzrə Təhsil İdarəsi müdirinin müavini Hüseyn Əsgərov, YAP İdarə Heyətinin üzvü, Azərbaycan-Fransız Universitetinin icraçı direktoru Vazeh Əsgərov, YAP Veteranlar Şurasının üzvü, Əməkdar elm xadimi Şahlar Əsgərov, YAP Veteranlar Şurasının üzvü, professor Misir Mərdanov və Bakı Dövlət Universitetinin professoru, fəlsəfə elmləri doktoru Mətanət Abdullayeva çıxış edərək müasir çağırışlar şəraitində Azərbaycan təhsilinin inkişafından bəhs ediblər. Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.



# "Azərbaycan-Qırğızıstan qardaşlığı kritik əhəmiyyətə malikdir"

***"Azərbaycanın xarici siyasət kursunda Orta Asiya regionu ilə münasibətlər önəmli yer tutur. Xüsusən də eyni kök, eyni dil və din amili bu münasibətləri diplomatik platformadan mənəvi müstəviyə daşıyır. Təbii ki, Qırğızıstan bölgədə Qazaxıstan qədər böyük ərazilərə, Özbəkistan qədər insan ehtiyatına malik deyil, amma qeyd edilən amillər heç də bu ölkənin önəmini azaltmır. Əksinə, Orta Asiyada öz coğrafi yerləşiminə və siyasi əhəmiyyətinə görə Qırğızıstan xüsusi rol oynayan beynəlxalq hüquq subyektidir.***



İlk növbədə, Bişkeklə əlaqələr həm Qərbin, həm də Rusiyanın Orta Asiya siyasətində önəmli yer tutur. Son bir neçə ildə Qırğızıstanda müşahidə olunan siyasi proseslər məhz Qırğızıstanın bu qütblər üçün nə qədər vacib geosiyasi önəmə malik olduğunu göstərir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, Azərbaycan da Qırğızıstanın bu rolunu dərk edir, qiymətləndirir: "Eyni zamanda Bişkek Bakının region, Türk dövlətləri və bütövlükdə dünya üçün yeni güc sahibi mövqeyini müşahidə edir. Düzdür, Azərbaycan-Qırğızıstan münasibətləri həmişə siyasi səviyyədə yaxşı olub, amma təəssüf ki konkret əməkdaşlıq mühiti ilə bağlı çoxsaylı nümunələrdən danışa bilmirik. Bişkek-Bakı münasibətlərində xüsusi canlanma məhz Prezident İlham Əliyevin Orta Asiya və Türk dünyasına yönəli başlatdığı aktiv siyasi kursdan sonra müşahidə olunmağa başlamış, son bir ildə liderlər arasında üç görüş, iki qarşılıqlı səfər baş tutmuşdur. Nəticədə Prezident İlham Əliyevin səyləri ilə siyasi münasibətlərin inkişaf etdirilməsinə paralel olaraq, nəqliyyat-logistika, informasiya-kommunikasiya texnologiyaları, təhsil, turizm və idman sahələri kimi konkret istiqamətləri əhatələyən kompleks format müəyyən edilmişdir ki, bu da Bişkek-Bakı münasibətlərində yeni səhifə açmışdır".

Bəhruz Məhərrəmov fikirlərinə davam edərək həmçinin qeyd edib ki, Azərbaycan Orta Asiyada bundan öncə Özbəkistan, Qırğızıstan və Türkmənistanla analoji formatı tətbiq etmiş və hazırda uğurlu nəticələrə nail olmaqdadır: "Bu mənada Qırğızıstanla da siyasi münasibətlərin iqtisadi təməllərlə möhkəmləndirmə perspektivi şübhə doğurmur, cənab İlham Əliyevin Bişkekə dövlət səfəri həlledici əhəmiyyət daşıyacaq.

Səfərin digər diqqət çəkən məqamı da bundan ibarətdir ki, Azərbaycanla münasibətlər, yaxud Azərbaycanın Orta Asiyada varlığı regionun qardaş Türk dövlətləri üçün birləşdirici meyara çevrilməkdədir. Bildiyiniz kimi, Türk dünyasının səyləri ilk dəfə məhz cənab İlham Əliyevin təşəbbüsü ilə Pandemiya ilə mübarizə çərçivəsində birləşdirilmiş, əməkdaşlıq mühiti qurularaq çox ciddi bir nəticə əldə edilmişdi. Məhz bu formatdan sonra artıq türk dünyası ikitərəfli münasibətlərə nisbətən, çoxtərəfli birlik şəraitində daha təsirli güc və imkana malik olduqlarının əməli formada fərqinə vardılar. Bu mənada Türk dünyasının birgə potensialının ortaya çıxarılması, suverenliklərimizə xələl gətirmədən böyük Türk mənəvi-siyasi birliyinə nail olunması üçün digər dövlətlərlə olduğu kimi Azərbaycan-Qırğızıstan əlaqələri, dostluq və qardaşlığı kritik əhəmiyyətə malikdir. Cənab Prezidentin dövlət səfəri də göstərdi ki, Qırğızıstan hakimiyyəti və xalqı da bu düşüncələrimizi həm nəzəri, həm də əməli olaraq bizimlə bölüşür".

***Arzu Qurbanlı***

# Ermənistanın düşünməsi üçün VAXT BELƏ QALMAYIB

***Praqada keçirilən görüş təsdiq etdi ki, Ermənistanın sülh müqaviləsindən nəinki yayınmaq, bu müqavilənin imzalanmasını uzatmaq şansı, eləcə də düşünməsi üçün belə vaxtı qalmayıb. Ola bilsin ki, hələ də erməni cəmiyyəti vəziyyəti öz xeyrinə dəyişmək üçün son nəğməsini oxumaq niyyətindədir, amma Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması perspektivi getdikcə reallaşır və buna mane olmaq cəhdləri tamamilə mənasızdır. Bu reallığı rəsmi İrəvan, yaxud Ermənistan ictimaiyyəti anlasa da, anlamasa da, bütün dünya ictimaiyyəti bunu həm başa düşür, həm də qəbul edir.***



Təbii ki, Ermənistan hakimiyyəti yenə də daxili auditoriya üçün hansısa yalan vədlər hazırlaya bilər və belə bir hazırlığın əvvəldən görüldüyü də müşahidə edilir. İşğalçı ölkənin daxilində müxalifət qüvvələrinin təzyiqindən qorxan Nikol Paşinyan yenə də populist çıxışlar edə bilər və hamı başa düşür ki, bu onun qorxusundan irəli gəlir. İndi erməni baş nazir öz ölkəsində hansısa fikir formalaşdırmağa çalışsa da, erməni politoloqları açıq şəkildə etiraf edirlər ki, Nikol Paşinyan, ümumilikdə Ermənistan artıq diplomatik müstəvidə də uduzub və razılaşmanın şərtlərinə əməl etmək məcburiyyəti qarşısındadır. Belə bir vəziyyətdə Ermənistan hakimiyyətinin daxili auditoriyaya hesablanan çıxışı da, erməni müxalifətinin direniş göstərmək niyyəti ilə səsləndirdiyi ifadələr də boş söz yığınından başqa bir şey deyil.

Həqiqətən də Ermənistan hakimiyyəti ölkə ictimaiyyətinin qəzəbindən çox qorxur və bu dəfə sülh sazişini bağlayacağına ölkəsində növbəti kapitulasiya kimi baxılmasından çox ehtiyatlanır. Ona görə ki, 44 günlük müharibənin sonunda Ermənistan tərəfi məğlubiyyətini məcburi şəkildə etiraf etdiyi kimi, indi də bunu asan şəkildə etiraf etmək, əvəzində də erməni cəmiyyətinin təzyiqləri ilə qarşılaşmaq xofundan yaxa qurtara bilmir. Əslində, Nikol Paşinyanın, eləcə də onun ətrafının, ümumilikdə Ermənistan hakimiyyətinin məsələləri, ələlxüsus, delimitasiya, demarkasiya və nəhayət, sülh sazişi kimi məsələləri uzatması da bu qorxunun, bu xofun təzahürüdür. İrəvanın küçələrində populist çıxışlarla, pafosla danışan, erməni xalqına qızıl dağlar, qələbələr vəd edən Nikolun hakimiyyəti ələ keçirdikdən sonra öz vədlərini yadına belə salmaması, ermənilərin o zaman işğalı altında olan Azərbaycan törparlaqında atılıb-düşməsi, sərxoş olub ağlına gələni danışması, ölkəsini müharibəyə, nəticədə məğlubiyyətə sürükləməsi təsdiq etdi ki, o ümumiyyətlə, xalqını düşünməyib və yalnız hakimiyyəti ələ keçirmək üçün dəridən-qabıqdan çıxıb. Elə həmin o küçə nümayişləri, 2018-ci ildə İrəvan küçələrindəki mitinqlər, narazılıqlar fonunda əlinin yaralanması da göstərir ki, həqiqətən də nəinki dərisini, hakimiyyət üçün əlini, qolunu belə qurban verməyə hazır imiş və həmin o cürbəcür avantürist hərəkətləri erməni xarakterinə müvafiq şəkildə nümayiş etdirməsi hakimiyyət hərisliyini təsdiqləyirdi. İndi təsəvvür etmək çətin deyil ki, əlindən-qolundan belə hakimiyyət naminə keçməyə hazır olan birisi üçün bu dəfə nəinki qolu, canını belə vermək niyyəti özünü açıq şəkildə biruzə verir.

Doğrudur, Nikol, eləcə də onun komandası hələ çabalayır və müxtəlif hiylələrlə məsələni uzatmağa çalışır. Məqsəd də bəllidir. Bəlli olan odur ki, küçə nümayişlərindən hakimiyyət kürsüsünə oturan bu səriştəsiz, idarəetmə təcrübəsi tamamilə olmayan bir adam, öz hakimiyyətini, yuxusunda belə görə bilmədiyi hakimiyyətinin müddətini ən azından uzatmaq niyyətindədir. Qeyd etdiyimiz kimi, erməni cəmiyyətinin qəzəbinə tuş gəlib hakimiyyətdən tamamilə uzaqlaşmamaq üçün vaxt qazanmağa çalışan Paşinyan dərk etməlidir ki, artıq proseslərin qarşısını ala, Avropada vəd edərək imzaladığı sülh prosesini uzada bilməz. Dərk etməlidir ki, Qərb artıq bunu nəinki istəyir, bunu Nikoldan da, Ermənistandan da tələb edir.



İstər Azərbaycan və Ermənistan dövlət başçıları ilə telefon danışığı aparan ABŞ dövlət katibi, Entoni Blinkenin Azərbaycan Prezidenti, cənab İlham Əliyevlə söhbəti zamanı hər iki tərəf arasında son görüşləri davamlı sülh sazişi istiqamətində müsbət addımlar kimi qiymətləndiribsə, Rusiya və KTMT hərbi-siyasi blokunun sülh sazişinin imzalanmasında maraqlı olması barədə mövqeyi ortadadırsa, deməli, Ermənistan tərəfinin məsələni uzatmaq kimi belə bir şansı, eləcə də vaxtı belə qalmayıb.




Etiraf etmək lazımdır ki, uzun illər, hətta onilliklər boyu erməni cəmiyyətinin, erməni xalqının arxalandığı qüvvələr belə bu gün Azərbaycanın ədalətli mövqeyini qəbul etmək məcburiyyətində qalıblar. Ona görə ki, Azərbacan haqlı tərəfdir və ölkəmizin tələb etdiyi haqqın, ədalətin bərpası, bölgədə təhlükəsizliyin təminatıdır. Ermənistanın vaxtilə arxalandığı qüvvələr özləri də geosiyasi reallıqları dəyişə bilməzlər. Ermənistan nə istəyirsə, yaxud da nə arzulayırsa arzulasın, bunu nəzərə almaq imkanı, məhz işğalçı ölkənin işğalçılıq istəklərini müdafiə etmək şansı da heç bir ermənipərəst dövlətdə belə yoxdur. Çünki Azərbaycan artıq yeni reallıqlar yaradıb və bölgədə, Cənubi Qafqazda maraqlı qüvvələr belə bununla hesablaşmaq məcburiyyətindədirlər. Təkcə biz yox, bütün dünya bunun Praqada keçirilən görüş zamanı bir daha əyani şahidi oldu. Şahidi oldu ki, Fransa kimi bir ermənipərəst dövlət işğalçını müdafiə edə bilmədi, daha doğrusu buna gücü çatmadı, çünki güc də, qüdrət də, haqq-ədalət də Azərbaycana məxsusdur. Belə olan halda, Ermənistanın vaxt qazanmağa belə cəhd etməsi tamamilə mənasızdır.

"Münaqişə başa çatıb, Dağlıq Qarabağ anlayışı yoxdur", tezisinin bütün dünya ictimaiyyəti tərəfindən istər siyasi, istərsə də hüquqi müstəvidə qəbul edilməsi fonunda, özü də bütün platformalarda, hər bir səviyyəli görüşdə etiraf edilməsi fonunda Ermənistanın nəyə isə ümid etməsi "dəryada balıq sevdası" kimidir. Bunu ermənilər başa düşdükləri zaman iddialarından dərhal əl çəkməlidirlər və əgər hələ əl çəkməyiblərsə, deməli ya anlamayıblar, ya da anlamaq istəmirlər. Anlamadıqları, anlamaq istəmədikləri halda isə, Azərbaycanla sülh müqaviləsi imzalamaqdan yayınmaq, öhdəliklərini yerinə yetirməkdən boyun qaçırmaq, bu müqavilənin imzalanmasının vaxtını uzatmaq niyyəti ilə hansısa təxribata ümid etmələri sadəcə, növbəti eskalasiyaya ilə nəticələnə bilər ki, bu da Ermənistan üçün arzuolunan deyil. Əvvəla ona görə ki, diplomatik danışıqlara üstünlük verən Azərbaycanın erməni təxribatları fonunda səbr kəsası dolduğu halda, Ermənistan bunun acı nəticələrini görməli olacaq və rəsmi Bakının istənilən halda öz ədalətli, haqlı mövqeyini hər zaman qətiyyətlə müdafiə edəcəyi bəllidir. Bu zaman lazım gəldikdə hərbi yolla məqsədlərimizə nail olacağımıza bütün dünyanın belə şübhəsi yoxdur, çünki müharibənin bitməsinə baxmayaraq, Azərbaycan müasir çağırışlara uyğun ordu qurmaq və gücləndirmək prosesini davam etdirir, hər mənada dəfələrlə üstünlüyünü qoruyub saxlayır. Bir sözlə, Ermənistanın istənilən halda məğlubiyyəti, razılaşmalara əməl edəcəyi qaçılmazdır, nə qədər məsələni uzatsa belə. "Ermənistanla sərhəddə mövqelərimiz daha da gücləndiriləcək. Əgər Ermənistan sərhədlərin müəyyənləşdirilməsində yenidən köhnə taktikasını tətbiq etsə, vaxtı uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərini diqqətlə izləyirik. Onlara da bu barədə məlumat verin. O dağın zirvəsində sözüm yazılıb: "Dəmir yumruq" yerindədir, bunu heç kəs unutmasın", deyə bəyan edən Azərbaycan Prezidentinin sözlərinə Ermənistan tərəfi şübhə edə bilməz, çünki "Dəmir yumruq" nə olduğunu ermənilər yaxşı bilirlər. Digər tərəfdən isə, artıq dünya dövlətləri, ələlxüsus Avropa ölkələri, Avropa İttifaqı indi Ermənistandan öz öhdəliklərinə əməl edəcəyini nəinki gözləyir, bunu tələb edir və Praqada keçirilən görüş zamanı buna hər kəs əmin oldu. Deməli, vaxt Ermənistanın əleyhinə işləyir və bu baxımdan da indi ermənilərin düşünmələri üçün belə zamanları qalmayıb, dərhal öhdəliklərinə əməl etməlidirlər, əks halda dünya dövlətlərinin belə təpkisi ilə qarşılaşmalı olacaqlar.

Ölkə rəhbərimiz əmin olduğun bildirib ki, əgər Ermənistan siyasi iradə nümayiş etdirsə, o zaman bu ilin sonuna qədər sülh müqaviləsi imzalana bilər. Bir sözlə, sülh müqaviləsinin ilin sonuna qədər imzalanması birbaşa Ermənistan tərəfinin öz öhdəliklərini yerinə yetirməsindən asılıdır. Deməli, rəsmi İrəvan siyasi iradə nümayiş etdirməlidir. İndi təkcə Azərbaycan deyil, bütün dünya Ermənistandan öz öhdəliklərini yerinə yetirməsini, özü də vaxt itirmədən yerinə yetirməsini gözləyir. Ermənistanın düşünməsi üçün belə vaxtı, zamanı qalmayib, çünki zaman itgisi bu ölkə üçün daha böyük zərərə, daha acı nəticələrə səbəb ola bilər.

***İnam Hacıyev***

# “Zəfərə gedən yolun başlanğıcı - 2003-cü il”



## *"Səs" qəzetində Azərbaycan Prezidenti İlham Əliyevin 2003-cü il 15 oktyabr tarixində Prezident seçilməsinin ildönümü ilə bağlı dəyirmi masa keçirildi*

**(əvvəli ötən sayımızda)**

”Səs” qəzetinin redaksiyasında Azərbaycan Prezidenti İlham Əliyevin 2003-cü il 15 oktyabr tarixində Prezident seçilməsinin ildönümü ilə bağlı ”Zəfərə gedən yolun başlanğıcı - 2003-cü il” mövzusunda dəyirmi masa keçirildi. Dəyirmi masada Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Musa Quliyev, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, professor Şahlar Əsgərov, YAP İdarə Heyətinin üzvü Elnur Sadıqov, YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov və YAP Yasamal rayon təşkilatının Gənclər Birliyinin üzvü Fərid Mustafayev iştirak edirdilər. Dəyirmi masanı giriş sözü ilə açan ”Səs” qəzetinin siyasət şöbəsinin müdiri İlham Əliyev qeyd etdi ki, ”Səs” qəzeti cəmiyyətin maraq dairəsində olan ən aktual, ictimai-siyasi əhəmiyyət kəsb edən mövzular çərçivəsində hər zaman dəyirmi masalar təşkil edib. Növbəti dəyirmi masa Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərliyinin 19-cu ildönümünə həsr olunub: ”XX əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. 15 oktyabr 2003-cü ildə ölkəmizdə keçirilən prezident seçkilərində inamlı qələbə qazanan Cənab İlham Əliyev ötən 19 il ərzində Azərbaycanın qazandığı uğurların müəllifidir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ilk günlərdən başlayaraq, nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verir”.

### BİRLİYİN KÖKÜNDƏ DAYANAN ƏSAS AMİL XALQIN PREZİDENT İLHAM ƏLİYEVƏ OLAN İNAMI, ETİMADI VƏ ETİBARIDIR



**VÜSAR İSMAYILOV:**

- Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir. Artıq Azərbaycan Prezidenti İlham Əliyevin oktyabrın 15-i 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 19 il ötür. Dövlət başçısının dərindən düşünülmüş daxili islahatları və ölçülüb-biçilmiş xarici siyasəti sayəsində hazırda Azərbaycan dinamik inkişaf edən ölkədir. Sabitlik, təhlükəsizlik və inkişaf 19 illik tariximizi xarakterizə edən əsas amillərdir. Sabitlik və təhlükəzsizliyimizin təminatçısı Azərbaycan xalqı və onun hakimiyyətlə olan monolit birliyidir, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bu birliyin kökündə dayanan əsas amil xalqın Prezident İlham Əliyevə olan inamı, etimadı və etibarı ilə bağlıdır. Bu gün, tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilmişdir. Azərbaycanda təhsilin keyfiyyətinin artırılması, həmçinin, bu yöndə müxtəlif dövlət və beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsi birbaşa cəmiyyətimizin elmi səviyyəsinin və təfəkkürünün inkişafına xidmət edir. Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində, ölkənin imkanları artdıqca, dövlət əldə olunan gəlirləri milli-intellektual potensialı reallaşdırmağa yönəldir. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövr ərzində, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulmuş hədəflər uğurla yerinə yetirilib. Qəbul olunmuş dövlət proqramları, layihələr, aparılan islahatlar təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsində mühüm rol oynayıb. Yeni təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri, müasir avadanlıqla təminatı uğurla reallaşıb. Müstəqillikdən sonra aparılan islahatlar nəticəsində Azərbaycanın elə regionu yoxdur ki, orada yeni məktəb binaları tikilməsin, yaxud mövcud məktəblər təmir edilməsin. Göründüyü kimi, zəngin təbii sərvətləri olan Azərbaycanda, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib.

Azərbaycan 44 günlük Vətən müharibəsində hərb tarixində yeni səhifə olan müharibədə qalib dövlət oldu. Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir. Əlbəttə ki, bu uğurların, dövlətçilimizin möhkəmlənməsində Yeni Azərbaycan Partiyasının rolu müstəsnadır. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirib, dövlətçiliyini inkişaf etdirib, demokratik dəyərlərə yiyələnib və özünün liberal prinsiplərə əsaslanan iqtisadi modelini yaradıb.

30 ilə yaxın dövr ərizində erməni işğalı altında olan torpaqlarımız azad olunandan sonra həmin ərazilər bu gün yenidən qurulur və böyük canlanma müşahidə olunmaqdadır. Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa edəcək və bunun üçün artıq dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşdırılır.



### HƏYATA KEÇİRİLƏN UĞURLU SİYASƏT VƏ İDARƏÇİLİK DÖVLƏTİMİZİN QÜDRƏTİNİN ARTMASINA VƏ XALQIMIZIN RİFAHININ YÜKSƏLMƏSİNƏ XİDMƏT EDİR

**ELNUR SADIQOV:**

- Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu və məqsədyönlü siyasət nəticəsində ölkəmizdə yoxsulluq səviyyəsi 4,9 faizə enmişdir. Halbuki, bu rəqəm 2004-cü ildə 40,2 faiz təşkil edirdi.

Prezident İlham Əliyev tərəfindən məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi, sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsinə şərait yaratmışdır. Həyata keçirilən uğurlu siyasət və idarəçilik təhlükəsizliyin və sabitliyin gücləndirilməsinə, müstəqiliyimizin möhkəmləndirilməsinə, dövlətimizin qüdrətinin artmasına və xalqımızın rifahının yüksəlməsinə xidmət edir. Vaxtında həyata keçirilən məqsədyönlü islahatlar və icra olunan layihələr Azərbaycanı regionda hər bir sahədə iqtisadi və siyasi mərkəzin inkişafına çevirmişdir. Dövlət başçısının rəhbərliyi ilə qəbul edilmiş dövlət proqramlarının və "Strateji yol xəritələri"nin dəqiqliklə icra olunması inkişafı sürətləndirməklə yanaşı, onun əhatə dairəsini də genişləndirmişdir. Bütün bu inkişaflar Prezident İlham Əliyevin düzgün şəkildə yürütdüyü daxili və xarici siyasətin nəticəsidir.

Respublikanın qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olaraq regionların balanslı və davamlı inkişafı sürətlənmiş, bu da eyni zamanda əhalinin sosial-rifahının yaxşılaşmasına şərait yaratmışdır. Ölkə başçısının həyata keçirdiyi uğurlu iqtisadi və siyasi islahatlar Azərbaycanın iqtisadi rəqabət qabiliyyətini və dayanıqlığını artırmışdır. Xüsusilə, İlham Əliyevin 2016-cı il mart ayının 16-da imzaladığı Sərəncam ölkədə həyata keçirilən iqtisadi islahatların daha da dərinləşməsinə və sistemli xarakter almasına xidmət edir. Hal-hazırda dünyada baş verən hərbi, siyasi və maliyyə böhranının sürətlə dərinləşməsinə baxmayaraq ölkədə iqtisadi inkişafı qoruyub saxlamaq, təbii ki, böyük nailiyyətdən xəbər verir.

Son dövrdərdə Azərbaycanda yerli istehsala üstünlük verilir, həm dövlət, həm də özəl sektora vəsait qoyulur. Ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, lazımsız yoxlamaların aradan qaldırılması yönündə və lisenziyalarla bağlı vəziyyətin yaxşılaşdırılması üçün iqtisadi islahatlar aparılır.

Davos İqtisadi Dünya Forumu ölkələrin iqtisadiyyatlarının rəqabətlilik qabiliyyətinə görə Azərbaycanı 40-cı yerə, MDB məkanında isə birinci yerə layiq görmüşdür. Əlbəttə ki, qeyri-neft sektoru iqtisadi inkişafımızda əsas yer tutur. Azərbaycan iqtisadiyyatının çox şaxəli inkişafına baxmayaraq qeyri-neft sektoru daxili məhsulun təxminən 70-faizini təşkil etməkdədir. Cənab İlham Əliyev prezident olduğu vaxtdan - bir neçə xarici ölkələrlə iqtisadi, sənaye, neftqaz və investisiya layihələri hazırlanmış və imzalanmışdır. Möhtərəm İlham Əliyevin prezidentliyi dövründə iqtisadiyyatın inkişası üçün bir çox mühüm addımlar atılmış, Azərbaycan neftinin dünya bazarına, o cümlədən Avropa bazarına çıxarılmasına imkan verilmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi bir sıra qlobal layihələr başa çatdırılmışdır. Bildiyimiz kimi 2006-cı ildən artıq Bakı-Tbilisi-Ceyhan boru xətti istismara verilmişdir.

Beləliklə, 2003-2022-ci illərdə Prezident İlham Əliyevin rəhbərliyi nəticəsində Azərbaycan tarixi nailiyyətlər qazanıb, dövlətimizin qüdrəti artıb, ölkənin siması bütünlüklə dəyişib, insanların həyatı yaxşılaşıb. Lakin milli iqtisadiyyatını formalaşdırmaqda olan Azərbaycan Respublikası müstəqil dövlət olaraq iqtisadi dayaqlarını daha da möhkəmləndirməli, yeni dövrün çağırışlarını özünün sosial-iqtisadi həyatında daha çevik nəzərə almalıdır.

## AZƏRBAYCAN GƏNCİ PREZİDENT İLHAM ƏLİYEVİN UĞURLU DAXİLİ VƏ XARİCİ SİYASƏTİNİ DƏSTƏKLƏYİR

**FƏRİD MUSTAFAYEV:**

- Mən fikrimi Ulu Öndər Heydər Əliyevin sözləri ilə başlamaq istərdim: "Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir. Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımı fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir". Bu gün gənc nəslin düzgün inkişafı ölkə siyasətində önəmli yer tutur. Ulu Öndər Heydər Əliyevin gəncliyə və gənclərə etimadı bu gün ar-



tıq öz təsdiqini tapmışdır. Ölkəmizdə gənclər siyasəti yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, gənclər təşkilatlarının formalaşması bu sahəyə böyük diqqətin nəticəsidir. Vətən müharibəsi zamanı döyüş meydanında düşmənin hər cür təxribatına inamla cavab verən Azərbaycan əsgərinin, zabitlərinin əksəriyyəti son 19 ildə böyüyən gənclərimiz təşkil edir.

Gənclər və İdman Nazirliyi yaradılması, məhz Ulu Öndərin gənclərə olan münasibətinin tərənnümüdür. O, illərdə ölkəmiz böhrandan təzə-təzə çıxırdı. Azərbaycanda iqtisadi vəziyyət çox ağır idi. Məhz həmin vaxt ölkəmizdə islahatlara start verildi. Ulu Öndərin qərarı Azərbaycanda gənclər üçün yeni imkanlar açdı, yeni şərait yaratdı. Daha sonra da müvafiq qərarlar qəbul edildi, dövlət gənclər siyasəti haqqında Fərman imzalandı. Sonrakı dövrdə belə ki, 2003-cü ildən bu günə qədər dörd Dövlət Proqramı qəbul edilmiş, bölgələrdə 40-a yaxın Gənclər Mərkəzi, onlarla Olimpiya İdman Mərkəzi yaradılmışdır. Çox böyük fəxr və qürur hissi ilə deyə bilərik ki, Azərbaycan gəncləri bu gün müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycanın hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Ölkəmizin gəncləri müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər və ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər.

Bu gün hər bir Azərbaycan gənci Ümummilli Lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, Azərbaycan gəncliyinin Lideri olan Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün hər kəs yumruğunu bir hədəfə vurmalıdır. Bu gün Azərbaycan gəncləri Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər. Sözlərimi Cənab Prezident İlham Əliyevin fikirləri ilə yekunlaşdırıram: "Mənim gənclərə xüsusi münasibətim var, Mənim ürəyim sizinlədir. Siz bütün işlərdə Mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram."

**MUSA QULİYEV:**

- Yeni Azərbaycan Partiyası ölkənin ictimai-siyasi proseslərində yaxından iştirak edən lider partiyadır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə və milli inkişaf konsepsiyasına sədaqət ruhunda fəaliyyət göstərən YAP müstəqil dövlətimizin qurulması və möhkəmlənməsinə, ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunmasına yönələn misilsiz xidmətlərlə zəngin, şərəfli yol keçib. Müasir dövrdə beynəlxalq arena-



da tanınan və qəbul edilən nüfuzlu partiyalar sırasında böyük nüfuz sahibidir. Sözsüz ki, partiyanın yüksək nüfuzu bilavasitə onun yaradıcısı Ulu Öndər Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti ilə bağlıdır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sədri olduğu YAP bu gün də müstəqilliyimizin, demokratik, hüquqi, dünyəvi dövlətimizin möhkəmləndirilməsi, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir və bu, partiyaya ümumxalq inam və etimadının daim artması ilə müşahidə olunur. YAP-ın VII Qurultayda qəbul olunmuş qərarlar partiyanın fəaliyyətində keyfiyyət etibarı ilə əhəmiyyətli dəyişikliklərə gətirib çıxardı.Yeni islahatlar və dəyişikliklər çərçivəsində partiyanın idarə olunmasında, partiya fəaliyyətinin tənzimlənməsində müvafiq addımların atılması zərurəti yaranmışdı. Bütün bu məsələlər YAP-ın VII Qurultayında təsdiq edilən yeni nizamnamədə öz əksini tapmış oldu. Qurultayda partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması ilə bağlı əhəmiyyətli qərarlar qəbul edildi və yeni Nizamnaməsi təsdiq olundu. YAP-ın İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası yaradıldı. Yeni idarəetmə modelini özündə ehtiva edən YAP-ın VII Qurultayında qəbul olunmuş qərarları milli həmrəyliyin yeni inkişaf mərhələsinin başlandığını nümayiş etdirdi.

## YENİ REALLIQ SİYASİ İSLAHATLARIN DƏRİNLƏŞMƏSİ ÜÇÜN ZƏMİN YARATDI



**ŞAHLAR ƏSGƏROV:**

- Yeni Azərbaycan Partiyası ölkənin həyatında müstəsna rol oynayan, Ulu Öndər Heydər Əliyevin ideyalarından güc alan siyasi partiya olaraq Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində, cəmiyyətin ümumi mənafelərinin təmin edilməsində mühüm rol oynayıb. YAP Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin, bu gününün və sabahının qarantına çevrildi. Xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir. Bu gün artıq YAP-ın yaranma tarixindən 30 il ötür. Azərbaycanda gedən bütün inkişaf, məhz Ulu Öndər Heydər Əliyevin qoyduğu siyasətlə bağlıdır. Sözlə əməl birliyi, partiya üzvlərinin Ulu Öndər Heydər Əliyev ideyalarına və Onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə sədaqəti YAP-ın ölkədə nüfuzunu daha da artırmış, ümumilikdə, bölgənin aparıcı təşkilatı kimi mövqeyini möhkəmləndirmişdir. Bunun nəticəsidir ki, Yeni Azərbaycan Partiyası ölkədə keçirilən bütün seçki kampaniyalarında fəal iştirak edərək, qalib olmuşdur. YAP-ın VII Qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisəyə çevrildi və bu partiyanın tarixində yeni inkişaf mərhələsinin başlanğıcıdır. Bu gün baş verənlər öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Prezidenti İlham Əliyevin Qurultaydakı geniş məzmunlu çıxışında partiyanın yarandığı vaxtdan indiyə kimi müstəqil dövlətçiliyin və demokratik siyasi sistemin möhkəmlənməsi, ölkəmizin davamlı inkişafı, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması istiqamətində göstərdiyi fəaliyyətlə bağlı dəyərli fikirlər irəli sürərək proqram xarakterli nitqində YAP üzvləri qarşısında yeni vəzifələri də müəyyənləşdirmiş oldu. Partiya bu vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirir. 2018-ci il prezident və 2020-ci il parlament seçkilərindən, xüsusən də 2020-ci ildə İkinci Qarabağ müharibəsində əldə olunmuş Qələbədən sonra yaranmış yeni reallıq siyasi islahatların dərinləşməsi üçün zəmin yaratmış oldu. Yaranmış yeni reallıqlar hakim partiyada islahatların aparılması və yeni fəaliyyət prioritetlərinin müəyyən olunmasının zəruriliyini müəyyən etmişdir.

## YAP BÜTÜN FƏALİYYƏT PRİNSİPLƏRİNİ DÖVLƏTƏ VƏ XALQA XİDMƏT ÜZƏRİNDƏ QURUB



**ARİF RƏHİMZADƏ:**

- YAP müstəqil dövlətimizin qurulması və möhkəmlənməsinə, ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunmasına yönələn misilsiz xidmətlərlə zəngin olan yol keçib. O vaxtkı iqtidarın səriştəsiz siyasəti dövlətə, xalqa qarşı edilən xəyanətlər elə bir vəziyyət yaratmışdır ki, hətta Azərbaycana dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə idi. Həmin vaxtlar YAP-ın yaranması tarixi zərurət idi. YAP-ın yaranması ilə Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni keyfiyyət gətirdi. YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox böyük uğurlar qazanmışdır. 2003-cü ildən etibarən, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrində yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Həmin illərdə insanlar ən kiçik sosial ehtiyaclarını ödəyə bilmirdilər. Bu gün hər bir sahədə uğurlar qazanılıb və Azərbaycan güclü dövlətdir, dünyada nüfuzlu ölkə kimi tanınır, regionun isə lideridir. Bu uğurların əldə edilməsində YAP-ın rolu danılmazdır.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu YAP böyük inkişaf yolu keçib. İnkişaf və tərəqqi yolunu tutaraq, bütün fəaliyyət prinsiplərini dövlətə və xalqa xidmət üzərində quran YAP ölkənin ictimai-siyasi proseslərində yaxından iştirak edərək, xalqımızın inam gətirdiyi lider partiyadır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Hər gün yazılan yeni Tarix!



**Güclü, Qalib Azərbaycan dövləti Qalib Sərkərdə, Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hər gün, hər həftə, hər ay yeni Tarix yazır. 44 günlük İkinci Vətən Müharibəsi, tarixi Qələbə və Zəfərimizdən sonra yeni-yeni Qələbələrə, Zəfərlərə, uğurlara, nailiyyətlərə imza atılır. Yağı, murdar düşmən tapdağından azad olunmuş torpaqlarımız, ərazilərimiz yenidən dirçəldilir, Qarabağımız yenidən qurulur, yenidən canlandırılır. Qarabağımıza yeni can, yeni nəfəs verilir.**



**Eldar İbrahimov**
**Milli Məclisin (MM) İntizam komissiyasının sədri, professor**

Hətta qısa müddət ərzində işğaldan azad olunmuş bölgələrimiz, ərazilərimiz önəmli, əhəmiyyətli, tarixi hadisələrə şahidlik və ev sahibliyi edir.

Qeyd edək ki, belə bir tarixi hadisələrdən, tədbirlərdən biri də işğaldan azad olunmuş Ağdam rayonunda keçirilən "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda Azərbaycan Milli Şəhərsalma Forumu oldu. Forum BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə baş tutdu.

Forum ərəfəsində Ağdam rayonuna növbəti dəfə səfər və bir sıra tarixi təməlatmalarda iştirak edən ölkə Prezidenti cənab İlham Əliyev və onun ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva Forumun işinə də qatıldılar.

Onu da qeyd edək ki, 44 ölkədən 130-dan çox nümayəndənin, ümumilikdə isə 400 nəfərdən çox insanın qatıldığı Azərbaycan Milli Şəhərsalma Forumu şəhərlərin bərpası ilə bağlı beynəlxalq və çoxtərəfli əməkdaşlığı üçün yeni imkan yaradacaq və şəhər ərazilərində böhranların aradan qaldırılmasına dair çətinliklərin müəyyən edilməsi, həllərin müzakirəsi ilə bağlı bilik və təcrübə mübadiləsi aparmaq üçün platforma rolunu oynayacaq.

Ölkəmizdə ilk dəfə məhz Ağdam şəhərində keçirilən Azərbaycan Milli Şəhərsalma Forumu şəhərsalma sahəsində dünyanın müxtəlif ölkələrindən olan sahə mütəxəssislərinin təcrübələrinin bölüşülməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından da nadir və uğurlu platformadır.

Xatırladaq ki, bu il iyunun 27-də Polşanın Katovitse şəhərində keçirilmiş Ümumdünya Şəhər Forumunun "Daha yaxşı gələcək naminə şəhərlərimizi dəyişdirək" mövzusunda 11-ci sessiyasında videoformatda çıxış edən Prezident İlham Əliyev bəyan etmişdi ki, Azərbaycan Ümumdünya Şəhər Forumunun növbəti sessiyalarının birinə ev sahibliyi etmək arzusundadır və buna hazırdır.

Ölkə Prezidenti hər zaman olduğu kimi, bu dəfə də dediyi sözün üstündə dayandı və Ağdamda sözügedən Forum baş tutmasına "yaşıl işıq" yandırdı. Forumda tarixi çıxışında və nitqində ölkə Prezidenti bir daha önəmli mesajlar verdi, xəbərdarlıqlar etdi.

Xüsusilə, 44 günlük tarixi İkinci Vətən Müharibəsi ilə, "Dəmir Yumruq"la qarşısında diz çökdürdüyü Ermənistana və onun havadarlarına növbəti mesajlarını, xəbərdarlıqlarını çatdırdı.

" Hazırda biz keçmiş məcburi köçkün və qaçqınları öz doğma yurdlarına mümkün qədər tez bir zamanda geri qaytarmaq üçün nəhəng bir çağırışla üz-üzəyik. Lakin genişmiqyaslı bərpa proqramı ilə yanaşı, ən böyük çətinliklərdən biri minalardır. Müharibə demək olar ki, iki il bundan əvvəl başa çatandan bəri təxminən 250 azərbaycanlı minaların partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb. Əfsuslar olsun ki, bu rəqəm hər həftə artır. Təkcə keçən həftə 2 nəfər həlak olub, 3 nəfər ağır yaralanıb. Ermənilər işğal dövründə 1 milyondan çox mina basdırıblar. Azərbaycana və azərbaycanlılara qarşı olan bu terror siyasəti davam edir. Lap bu yaxınlarda biz İkinci Qarabağ müharibəsi bitəndən sonrakı dövrdə Ermənistan silahlı qüvvələri tərəfindən Laçın rayonunda basdırılmış 1400-dən çox mina aşkar edərək zərərsizləşdirmişik"-deyə, bəyan edən Ali Baş Komandan bildirdi ki, Azərbaycana qarşı təcavüz, Azərbaycana qarşı terror davam edir.

Çıxışında "ölü can" olan ATƏT-in Minsk qrupunun fəaliyyətinə, daha doğrusu, fəaliyyətsizliyinə toxunan Azərbaycan Prezidenti vurğuladı ki, ən çox təəssüf doğuran odur ki, ATƏT-dən mandatı olan Minsk qrupu adlandırılan struktur və onun həmsədrləri işğal olunmuş ərazilərə dəfələrlə səfərlər edib, bütün şəhər və kəndlərin qəddarcasına dağıdılmasının, ermənilərin bizim torpaqlarımızda qanunsuz məskunlaşdırılmasının şahidi olublar, lakin Ermənistanı qınamayıblar.

İyirmi səkkiz illik belə dırnaqarası fəaliyyətləri dövründə onlar tərəfindən Ermənistanı qınamaq üçün bir söz belə deyilməyib. İndi bizu Minsk qrupunu yenidən canlandırmaq istiqamətində bəzi səyləri görəndə, təbii ki, bunu dəstəkləyə bilmərik, çünki onlar öz mandatlarını həyata keçirmək üçün heç nə etmədilər, onların gördüyü yeganə iş faktiki surətdə ondan ibarət olub ki, müəyyən mənada erməni təcavüzünü legitimləşdirməyə çalışıblar.

Onlar təcavüzkar və təcavüz qurbanı arasında balans yaratmağa çalışıblar. Ona görə də bu gün Azərbaycan özü beynəlxalq hüququ bərpa edib, BMT qətnamələrini icra edib, BMT-nin Nizamnaməsini, xüsusilə də onun özünümüdafiə ilə bağlı müddəasından istifadə edərək bizim milli ləyaqətimizi bərpa edib. Dövlət başçımız onu da bəyan etdi ki, sülh prosesi ilə bağlı bizdə müəyyən nikbinlik var.

Çünki bu yaxınlarda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü, xüsusilə də sülh sazişi layihəsinin hazırlanması gündəliyi ilə bağlı ilk belə görüş keçirilib. Ümid edirik ki, bu, çox vaxt aparmayacaq.

Sonra "Biz bilirik ki, ermənilər 28 ildir Qarabağ münaqişəsi ilə bağlı danışıqlar aparmaq kimi razılığa gəlmək istəmədikdə adətən hansı taktikalardan istifadə edirlər. Belə davam edərsə, biz də sülh əldə edə bilməyəcəyik. Əgər bu, Ermənistanın seçimidirsə, bu, o deməkdir ki, onlar növbəti ciddi səhvə yol verəcəklər. Onlar bizi düzgün qiymətləndirmədilər, onlar bizim iradəmizi, Azərbaycan xalqının iradəsini, Azərbaycanın potensialını düzgün qiymətləndirmədilər və bunun əvəzini ödəməli oldular. İki il bundan əvvəl baş verən müharibə Azərbaycan ərazisində aparılıb. Bu, bir daha bizim mövqeyimizi sübut edir və göstərir ki, bütün bunlara, bir milyondan çox vətəndaşımızın çəkdiyi zülmlərə baxmayaraq, biz düşmənçiliyə, qarşılıqlı nifrətə son qoymaq və yeni sülh səhifəsi açmaq istəyirik"-deyən Ali Baş Komandan eyni zamanda, qeyd etdi ki, müvəffəq olub-olmayacağıq, görəcəyik, amma ən azından biz bu istiqamətdə irəliləyirik.

Həmçinin, Praqada Azərbaycan televiziya kanallarına müsahibəsinə ölkə rəhbəri bir daha bəyan etdi ki, hələ də bu günə qədər erməni silahlı birləşmələri bizim torpağımızdan çıxarılmayıb. Biz isə haqlı olaraq, bunu tələb edirik.

Düzdür, onların bir qismi çıxarılıb, amma hələ də onlar torpağımızda mövcuddur və ümid edirik ki, buna da son qoyulacaq. Ali Baş Komandanın bəyan etdiyi kimi, çünki bir şeyi artıq bütün dünya ictimaiyyəti açıq dərk edir ki, Qarabağ Azərbaycandır!

Bunu biz hər dəfə deyirdik, işğal dövründə, müharibə dövründə, müharibədən sonra. Bu gün dünya birliyi bu həqiqəti artıq nəinki dərk edir, həm də bunu tələffüz edir.

Müsahibəsində "Qarabağda yaşayan ermənilər, - mən bunu dünən Ağdamda demişəm, - bizim vətəndaşlarımızdır və onların taleyini, onların gələcək həyatını biz hər hansı bir ölkə ilə müzakirə etmək fikrində deyilik, o cümlədən Ermənistanla. Bu, bizim daxili işimizdir və Azərbaycan vətəndaşları hansı hüquqlara malikdirlərsə, ermənilər də o hüquqlara malik olacaqlar. Hər halda, əmin ola bilərlər ki, onların yaşayışı, Azərbaycan cəmiyyətinə inteqrasiya edilmiş yaşayışı indiki yaşayışdan qat-qat yaxşı olacaqdır"-deyən Azərbaycan Prezidenti növbəti dəfə və açıq şəkildə bildirdi ki, Ermənistan tərəfindən xoş məram olarsa, sülh müqaviləsi ilin sonunadək imzalana bilər.

"Vaxt keçir, bizim təşəbbüslər heç də asan irəliləmir, xarici işlər nazirlərinin birinci görüşü konkret nəticələr verməsə də, hesab edirəm ki, bu, müsbət addımdır. Düşünürəm ki, yaxın vaxtlarda qərar qəbul edilərsə, iki ölkənin işçi qrupları sülh müqaviləsinin mətni üzərində işləməyə başlayacaqlar, biz ilin sonunadək razılaşmaya nail ola bilərik"-deyərək, dövlət başçımız vurğuladı ki, sülh müqaviləsinin beş prinsipi mümkün qədər tez paraflanmalıdır, sülh müqaviləsinin mətni üzərində iş bu prinsiplər əsasında başlamalıdır və buna da tez nail olmaq mümkündür.

Bəli, biz növbəti dəfə sözümüzü dedik, növbəti dəfə mesajımızı verdik, növbəti dəfə seçimimizi etdik. İndi isə seçim və düzgün qərar qarşı tərəfindir. Ağılları olsa, tez və düzgün seçim edərlər.

Amma bütün hallarda, biz sülh müqaviləsinə, onun imzalanmasına nail olacağıq.

Necə ki, 30 illik münaqişəni 44 günə Qələbə ilə bitirdik, sülhü də bu bölgəyə biz gətirəcəyik, sülhü də biz bərqərar edəcəyik!

Başqa söz ola bilməz!

***Hələ bir neçə gün əvvəldən, daha dəqiq desək, Praqa görüşündən sonra erməni KİV-lərində belə bir məlumatlar yayılmağa başladı ki, Qarabağ separatçılarının lideri Araik Arutyunyan İrəvana gedib və Ermənistanın baş naziri Nikol Paşinyanla görüş keçirəcək. Lakin həmin vaxtdan indiyə qədər sözügedən görürün baş tutmadığı bildirilir. Məhz bu baxımdan erməni mediası yazmağa başlayıb ki, Nikol Paşinyan Araik Arutyunyanla görüşməkdən imtina edir və ümumiyyətlə, Ermənistan hökuməti Qarabağ separatçılarını özündən kənarlaşdırmaq prosesinə başlayıb.***



# Nikol Paşinyan Araik Arutyunyandan niyə qaçır?

## *Ermənistan hökuməti Qarabağ separatçılarını özündən kənarlaşdırır*

**Erməni KİV-ləri sual ünvanlayırlar - Nikol Paşinyan İrəvandadırsa və müxtəlif görüşlər keçirirsə, nəyə görə bir neçə gündür orada olan Arutyunyanı qəbul etmir?**

Xatırladaq ki, məhz Praqa görüşündən sonra və Xankəndidə keçirilən mitinqlər fonunda Araik Arutyunyanı mitinqçilərin qarşısına çıxmağı tələb edən insanlar sonradan öyrəniblər ki, o İrəvana gedib və oradan geri qayıtdıqdan sonra öz fikirlərini bildirəcək. Digər tərəfdən isə, Xankəndidəki mitinqin təşkilatçılarından olan separatçı Tiqran Petrosyan da erməni mediasına bildirmişdi ki, Arutyunyan Ermənistan parlamentinin spikeri Alen Simonyanın Rusiya səfərindən geri dönməsini gözləyir ki, onu qəbul etsin.

Beləliklə, erməni KİV-ləri belə bir sual ünvanlayırlar - əgər Nikol Paşinyan hal-hazırda İrəvandadırsa və müxtəlif görüşlər keçirirsə, nəyə görə bir neçə gündür orada olan Arutyunyanı qəbul etmir? Məsələn, ”Hraparak” nəşrinin yazdığına görə, Nikol Paşinyan Praqadan geri dönüşündən sonra dərhal təhlükəsizlik şurasının geniş tərkibli iclasını çağırdı. Təhlükəsizlik şurasının əsas üzvlərindən başqa, iclasa Ermənistanın prezidenti iştirak edib, eləcə də Araik Arutyunyanın ”hökumət aparatının rəhbəri”, habelə parlamentin hakim ”Vətəndaş sazişi” fraksiyasının rəhbəri Hayk Kondjoryan da iclasa qatılblar. Məhz bu fonda diqqət çəkən məqamlardan biri də Araik Arutyunyanın İrəvana səfəri zamanı orada rəsmi dairələrlə görüşlər keçirəcəyi barədə məlumatların yayılması oldu. Lakin göründüyü kimi, Qarabağ separatçılarının başçısı həmin iclasa dəvət edilməyib və yalnız o deyil, heç separatçıların ”təhlükəsizlik şurasının katibi” Vitali Balasanyan da orada olmayıb. Erməni nəşri xatırladır ki, hələ bir il əvvəll Ermənistanın təhlükəsizlik şurasının iclaslarına bu şəxslər dəvət edilirdilər.

**”Hraparak”: ”Bu, Əliyevin birbaşa tələbidir ki, nəinki Ermənistanın hakim dairələrində fəaliyyət göstərən rəsmilər Qarabağa səfər etməməli, həmçinin Qarabağ separatçıları Ermənistanın rəsmi iclaslarında birgə iştirakdan kənarda qalmalıdırlar”**

”Hraparak” əlavə edir: ”Paşinyan bununla Əliyevi inandırmağa çalışır ki, Ermənistan üçün Qarabağ məsələsi bağlanıb. İstisna edilmir ki, bu, Əliyevin birbaşa tələbidir ki, nəinki Ermənistanın hakim dairələrində fəaliyyət göstərən rəsmilər Qarabağa səfər etməməli, həmçinin Qarabağ separatçıları Ermənistanın rəsmi iclaslarında birgə iştirakdan kənarda qalmalıdırlar”.

Adıçəkilən nəşr özünə yaxın mənbələrinə istinadən deyir ki, Paşinyan Qarabağ separatçılarını başsız qoymağa çalışır və bu vasitə ilə Arutyunyanın istefa verməsinə cəhd edir. Məqsəd isə təxminən belədir: bundan sonra bir daha Qarabağda ”prezident” seçilməməli, o cümlədən, ”dövlət strukturları” paralizə edilməli, iflic vəziyyətinə gətirilməli, separatçılar isə başsız bədənə çevirlməlidirlər.

Əgər həqiqətən də belədirsə və bu yöndə addımlar atılmağa başlayıbsa, bu zaman Nikol Paşinyanın Araik Arutyunyanı nəyə görə qəbul etməməsi faktı daha çox açığa çıxmağa başlayır və əslində erməni baş naziri sözügedən istiqamətdə yeganə doğru seçim edir. O bilir ki, əks halda onun rəhbərlik etdiyi Ermənistan adlı respublika da çıxılmaz vəziyyətə düşməklə xəritədən silinmək təhlükəsi ilə qarşı-qarşıya qalmalı olacaq.

***Rövşən RƏSULOV***

***P.S.*** *Məqalə çapa gedərkən məlum oldu ki, Nikol axır ki, Araiklə görüşüb. Çox yəqin ki, əsas müzakirə əsasən Araikin taleyinin necə olacağı barədə aparılıb. Hətta ehtimal etmək olar ki, Ermənistan hökuməti 2023-cü ilin büdcəsini qəbul edərkən daha Qarabağa maliyyə ayıra bilməyəcək, yəni buna cürət etməyəcək. Çünki bundan sonra Xankəndinin də maliyyə xərcləri məhz Azərbaycanın büdcəsindən təyin olunacaq. Yaxşısı budur ki, separatçı quldur Azərbaycanın xüsusi xidmət orqanlarının əlinə keçdikdən sonra çulunu sudan necə quru çıxaracağı haqqında düşünsün. Təbii ki, çulu qalıbsa...*

# Ermənistanın qaçılmaz məğlubiyyəti

***27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi hər gün yeni qələbələrimizlə davam edirdi və işğalda olan ərazilərimiz Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz tərəfindən azad edilirdi. Azərbaycan müharibənin ilk günlərində döyüş meydanında öz gücünü göstərdi və elə bir müharibə apardı ki, bütün dünya bunu izlədi.***



”İkinci Qarabağ savaşı dönəmində də Ermənistan döyüş meydanında ilk gündən məğlubiyyətə uğramağa başlamışdı”, - deyən Cənab Prezident müsahibələrinin birində bildirib ki, 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmadıq: ”Hətta manevr etmək məqsədilə də geri addım atmadıq. Ermənistan isə artıq öz qaçılmaz məğlubiyyətini dərk edərək bizi durdurmaq və mülki əhaliyə böyük zərər vermək üçün şəhər və kəndlərimizi ballistik raketlərlə, artilleriya qurğuları ilə daim atəşə tuturdu. Bunun nəticəsində 100-dən çox mülki şəxs, o cümlədən qadınlar və uşaqlar həlak oldular. Bu görüntülər var. Gəncə, Bərdə, Ağdam, Goranboy, Naftalan, Tərtər, Füzuli və digər bölgələrimizi hər gün atəşə tuturdular. Tərtər şəhərinə, - o qədər də böyük şəhər deyil, - 20 minə yaxın raket düşmüşdür”. Ermənistan Ordusu humanitar atəşkəsi kobud şəkildə pozaraq, Azərbaycan ərazilərini, mülki vətəndaşları atəşə tutulmaqda davam etməsi onu göstərmiş oldu ki, təzavüzkar siyasətini davam etdirir.

Ermənistan Silahlı Qüvvələrinin Bərdə və Tərtər şəhərlərini ”Smerç” raketindən atəşə tutması erməni vəhşiliyinin daha bir nümunəsi oldu. Bu bir daha Ermənistan tərəfinin Azərbaycanın hərbi qüvvələrinə zərbə endirməkdə acizliyini təsdiqlədi. Ermənistan silahlı qüvvələri Bərdədə dinc sakinləri ”Smerç” raketləri ilə atəşə tutaraq, şəhərdə dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan istifadə olunmaqla zərbələr endirdi. Nəticədə aralarında uşaq və qadınlar da olmaqla, 21 dinc sakin həlak oldu, 70-ə yaxın mülki şəxs yaralandı. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi. işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə humanitar atəşkəs razılaşmasının tələblərini pozaraq dinc sakinlərimizi bilərəkdən hədəfə almaqda davam edirdi. Ermənistan humanitar atəşkəsin prinsiplərinə riayət etmədiyini, yenidən düşmənçilik və təcavüzkar siyasətini davam etdirdiyini hər addımında təsdiqləyirdi. Humanitar atəşkəsin elan olunmasından 14 saat sonra Gəncə və Mingəçevir şəhərlərinin işğalçı dövlət tərəfindən yenidən raket hücumuna məruz qalması artıq qırmızı xətti keçmək demək idi. Düşmənin mülki əhalini və infrastrukturu məqsədyönlü şəkildə hədəfə almasında məqsəd dinc sakinləri təşvişə salmaq idi. Əminliklə deyə bilərik ki, avantürist erməni hakimiyyəti məqsədinə çata, Azərbaycan xalqında, həmçinin Gəncə sakinlərində heç bir təşviş yarada bilmədi. Xalqımız, o cümlədən bütün gəncəlilər düşmən terrorundan, təxribatından çəkinmədən öz işinə davam etdi, şanlı ordumuzun uğurlarından daha da ruhlanırdı. Əmin idi ki, Azərbaycan haqq mübarizəsində tezliklə qalib olacaq. Bütün bu və ya digər olaylara baxmayaraq, Azərbaycan qətiyyətli mövqeyini, iradəsini, gücünü nümayiş etdirdi. ”Azərbaycan xalqının iradəsini qıra bilmədilər”, - deyən Prezident müsahibəsində müharibə dövründə yaxınlarını, qohum-əqrəbalarını itirmiş insanların fikirlərini də ifadə edib: ancaq irəli getməliyik.

Azərbaycan və Ermənistan arasında atəşkəs elan olunsa da, ölkəmizin xoşməramlı səylərinə, Ermənistanı diplomatik vasitələrlə işğalçılıq siyasətindən çəkindirməyə yönələn addımlara baxmayaraq, münaqişə hələ də həll olunmamış qalırdı. Qarabağ müharibəsi vaxtı cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan sənəd olan ”Bişkek protokolu” 1994-cü ilin mayında imzalanmışdır. 26 il atəşkəs rejimində Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozuldu. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət vermədi. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul etsə də beynəlxalq hüququn normalarını kobud şəkildə pozmuş oldu. 30 il ərzində torpaqlarımızın işğal altında olmasının böyük ədalətsizlik və beynəlxalq hüququn bütün norma və prinsiplərinə zidd idi. Vətən müharibəsində onlara Azərbaycan yetərincə dərs verdi və 44 gün ərzində işğalçıları öz torpaqlarından qovdu. Tarixi ədalət bərpa olundu. 2020-ci ilin noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatla düşmən təslim oldu. Artıq işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsidir. İşğaldan azad olunmuş ərazilərdə dövlətimizin başçısının tapşırığı ilə bir neçə yol layihəsinin icrasına başlanılıb və uğurla davam etdirilir. Hər şey yenidən qurulur, hər şey uğurla davam edir. Buna hər gün dövlətimiz tərəfindən atılan addım əminlik yaradır.

***Zümrüd BAYRAMOVA***

# Payız depressiyası, yoxsa mövsüm dəyişikliyi?



***Payız dövrünün əvvəlində təbiətdə bir çox dəyişikliklər baş verir. Məhz bu fəsil də təbiətin tərkib hissəsi olduğu üçün bu və ya digər şəkildə insan orqanizminə təsir göstərir. Bildiyimiz kimi payızda hava kəskin şəkildə pisləşir və gündüz saatlarının uzunluğu nəzərə çarpacaq dərəcədə azalır. Bu da həm immunitet sisteminə, həm də psixoloji sağlamlığa mənfi təsir göstərir. Bundan əlavə olaraq fəsillə əlaqədar olaraq gündəlik pəhrizdə köklü dəyişiklik baş verir.***

Təcrübələr göstərir ki, hər bir insan özünü psixoloji cəhətdən payız dövrünə hazırlamaq üçün kifayət qədər problem yaşayır. Payız fəslində dəyişikliklər axşam saatlarında daimi zəiflik və baş ağrılarının, bəzi hallarda isə titrəmə və hətta burun axıntısı halları ilə özünü büruzə verir. Psixoloqlar payız fəslində insanlarda həssaslaşma, depressiv halların daha çox müşahidə edildiyini söyləyirlər.

Nəmli hava kütləsi müxtəlif virusların və digər patogenlərin aktivləşməsinə şərait yaradır. İnsanda immunitet sistemi ilə bağlı problemlər varsa, müxtəlif xəstəliklərin inkişaf şansı əhəmiyyətli dərəcədə artır.





### Psixoloji durumumuza hansı təsirləri var?

Fəsil dəyişkənliyi ilə əlaqədar yaşanan əsas problemlərdən biri də məhz psixoloji təsirdir. Çünki mövsüm dəyişkənliyi insanın depressiyaya girməsini daha da asanlaşdırır, bəzi insanlarda bu daha yüngül halda keçirsə, digərlərində isə daha ağır formada özünü göstərə bilir. Xüsusilə iş və şəxsi həyatda sıxıntı keçirən insanlarda depressiya hallarına daha çox rast gəlinir. Ofis mühitində və ya fiziki aktivlik tələb edən işlərdə işləyən insanlar üçün də eyni vəziyyət keçərlidir. Bu insanlarda özünü adətən halsızlıq, yorğunluq kimi hislər yaşanmaqla yanaşı, yuxu rejiminin, iştahın pozulması, bədəndə ağrıların olması, müəyyən bir işə həvəssiz yanaşma kimi göstərir. Fəsil dəyişikliyi səbəbindən yaranan daxili sıxıntı və bədbəxtlik hissi iş həyatında adaptasiya çətinliyi, enerji azalması və diqqət dağınıqlığına səbəb olur. Sürətli və stresli həyat şərtləri təsirsiz ötüşmür. Aparılan araşdırmalara görə, payız-qış aylarında günəş şüalarının hərarətinin azalması da insan psixologiyasına mənfi təsir göstərən amillər sırasındadır. Bu dövrdə uşaqlar, gənclər və yaşlılar xüsusilə diqqətli olmalıdırlar. Fəsillə əlaqədar yaranan gərginliklər 17-25 yaş arasında olan insanlarda üstünlük təşkil edir.

Əslində mövsümi əhval pozğunluğu halı təkcə payız-qış ayları üçün deyil, digər fəsillər üçün də keçərlidir. Şimal ölkələrində, xüsusən də qış aylarının daha uzun və qaranlıq olduğu yerlərdə yaşayan insanlarda mövsümi depressiyaya daha çox rast gəlinir.



### Depressiyanın əlamətləri hansılardır?

Klinik depressiyanın əsas əlamətləri xoş olmayan duyğu hissi, maraq və zövq azlığı, ümidsizlik və pessimistlikdir. Belə şəxslər dərin bir kədər yaşamaqdadırlar. Gələcəkləri və yaşadıqları ilə bağlı həmişə ümidsiz düşünərlər. Pasiyentdə depressiv hallarla yanaşı, müəyyən vəzifə və öhdəliklərə qarşı da məsuliyyət hissinin azaldığı görülür. İş, şəxsi zövqlər, ikili münasibətlər, cinsəllik də daxil olmaq üzərə artıq zövq almazlar. Bunlarla belə ürəkbulanma da görülə bilər. Ümidsizlik və çarəsizlik hissləri o qədər dərin ola bilir ki, düşdükləri bu vəziyyətdən heç bir şəkildə qurtula bilməyəcəklərini belə düşünə bilərlər. Depressiv xəstələr adi günlük aktivitələri belə etməkdə çətinlik çəkərlər. İş, ailə, pul və sağlamlıqları ilə bağlı beyinləri məşğul olar. Enerji səviyyələri azalar. Bəzi şəxslərdə isə əlamətlərin qabarıq forması somatik əlamətlər şəklində olur.

Depressiv halların çoxundan bu kimi şikayətlərlə yanaşı olaraq iştahsızlıq və çəki itkisi də görülə bilər. Yuxu pozulmaları depressiyanın sıx rast gələnən əlamətləri arasındadır. Əlavə olaraq dalğınlıq və unutqanlığı da buraya aid edə bilərik. Bəzi ağır depressiya hallarında isə düşüncədəki fikirlər ilə realda baş verəni xəstə bir-birilə qarışdıra da bilər.

### Depressiya diaqnozu necə qoyulur?

Depressiya diaqnozunun qoyulması üçün yuxarıda sadalanan əlamətlərinin hamsının olması önəmli deyildir. Yuxarıdakı şikayətlər həyatı çətinləşdirəcək qədər ağır və başqa bir səbəblə əsaslandırıla bilinməzsə, bu zaman diaqnoz qoyulur.

Fəsil dəyişikliklərini rahat keçirmək üçün bəzi tədbirlərin görülməsi vacibdir. Xüsusilə qidalanma və yuxu rejiminə diqqət edilməli, vitamin və mineral baxımından zəngin qidalar yeyilməli, bol su içilməlidir, siqaret və alkoqoldan uzaq durulmalıdır. Əgər qapalı bir məkanda uzun müddət qalmalısınızsa, olduğunuz yerin təmiz olduğundan və yaxşı havalandırıldığından əmin olun. Stressə səbəb olan hallardan qaçın. Nevroz və digər psixoloji problemləri olan insanlarda fəsil dəyişikliyi zamanı yaranan yorğunluq özünü daha çox biruzə verir. Həmçinin xroniki problemi olan insanlara da bu aylarda özlərini qorumaları tövsiyə olunur. Bu mənada, məsləhətləri hər zaman diqqət mərkəzində saxlamaqda fayda var. Bu dönəmlərdə müsbət enerji ala biləcəyiniz insanlarla ünsiyyətdə olmaq da psixoloji cəhətdən müsbət təsirlə nəticələnə bilər.

Depressiv əhval müxtəlif səbəblərdən yarana bilər. Qış depressiyası, payız və qış aylarında günəş işığının az olması səbəbindən beyindəki pozulmuş hormonal balansdan qaynaqlanır. Səbəb isə, qışda günlərin qısaldılması ilə bədənin gündüz və gecə ritmi pisləşir. Bu pisləşmə ilə beyindəki hormonlar və siqnal verici maddələrin (neyrotransmitterlər) balansı pozulur.

Siqnal verici maddələr (neyrotransmitterlər) beyində siqnal ötürülməsində mühüm rol oynayan üzvi kimyəvi komponentlərdir. Dopamin, Norepinefrin, Serotonin və Endorfin beynin ən vacib siqnal verici maddələridir. Bu maddələr bədənin özü tərəfindən istehsal olunur və bir-biri ilə çox xüsusi əlaqəsi var. Bu əlaqənin pisləşməsi, məsələn, bir maddənin qeyri-adekvat istehsalı, emosiya, davranış və qavrayışa mənfi təsir göstərir.

Bu maddələrin funksiyası nədir?

**1.** Dopamin, norepinefrin ilə birlikdə bədəndə xoş hisslər yaradır. Dopamin səviyyəsində bir qədər azalma depressiyaya səbəb olur.

**2.** Serotonin sakitlik, tarazlıq və məmnunluq təmin edir. Eyni zamanda aclıq, qorxu, təcavüz, kədər və narahatlıq kimi hisləri azaldır.

**3.** Norepinefrin bədəni enerjili saxlayır və stimullaşdırır.

**4.** Endorfin ağrı kəsicidir. Hətta endorfin səviyyəsində kiçik bir enmə ağrı hissini daha da gücləndirir.

Qadınlarda bu dövri əhval kişilərə nisbətən iki dəfə çoxdur. Bunun səbəbi qadınların həyat boyu hormon dalğalanmalarına daha çox məruz qalmalarıdır.

Qadınlar ümumiyyətlə aşağıdakı dövrlərdə depresiv əhval-ruhiyyə daha çox müşahidə olunur:

- Menstruasiya dövrü
- Hamiləlik dövrü
- Doğum dövrü
- Doğumdan sonrakı dövr

Qış depressiyasının simptomlarına isə aiddir:

Artan yorğunluq, konsentrasiya problemi, ruh düşkünlüyü , maraq itkisi, tükənmə, həvəssizlik, sosial təcrid, kökəlmə, gərginlik, əsəbilik, iştahsızlıq, yuxu pozğunluğu.

Depressiyaya düşmək istəmiriksə, bəs, nə etməliyik?

Demək olar ki, hər kəsin bir stressli dövrü olur. Buna əsasən keçirdiyimiz travmalar, yaşadığımız hər hansı pis hadisə və s. səbəb ola bilər. Adətən dövri olan bu əhval-ruhiyyə bir müddət sonra yox olur. Lakin bu depresiv əhval (kədər , ümidsizlik) uzun müddət davam edərsə, davamlı depressiyaya çevrilə bilər. Depressiya mülayim, orta və ağır depressiya kimi təsnif edilir.

***Arzu Qurbanlı***

# İran nefti və dünya bazarı






*Sentrifuqalar, etirazlar və pilotsuz təyyarələr Tehranın sanksiyaların aradan qaldırılması üçün danışıqlara getməsinə mane olur*




***Avqust ayından Tehran və Qərbin yeni "nüvə sazişi" bağlamaqdan "bir addım uzaqda" olduğu Birgə Hərtərəfli Fəaliyyət Planının (JCPOA) bərpası ətrafında vəziyyət kəskin şəkildə dəyişməyə başlayıb. MAQATE-nin məlumatına görə, İran öhdəliklərinə zidd olaraq uranı zənginləşdirməyə davam edir, bundan əlavə, Rusiyaya hərbi tədarükdə, xüsusilə kamikadze dronlar verməkdə ittiham olunur. Ölkə rəhbərliyi ilə Qərb arasında münasibətlərdə əlavə gərginliyi İran şəhərlərində keçirilən etiraz aksiyaları yaradır.***



Bütün bunlar, Ağ Evin noyabrda keçiriləcək Konqresə aralıq seçkiləri öncəsi İran hakimiyyəti ilə görüşmək istəməməsi ilə birlikdə, İranın nüvə proqramı ilə bağlı razılığın əldə olunmasını gələn ilə qədər təxirə sala bilər.

MAQATE-nin hesabatına əsasən, İran payızda nüvə obyektlərində ən son səmərəli IR-6 sentrifuqalarının üçüncü kaskadını quraşdırıb və istifadəyə verib. Belə çıxır ki, İslam Respublikası JCPOA-nın şərtlərini pozmaqda davam edir. 2015-ci ildə bağlanmış bu müqaviləyə əsasən, İranın yalnız IR-1 sentrifuqalarından istifadə etmək hüququ var idi. MAQATE-nin hesabatında göstərilən faktlar artıq çıxılmaz vəziyyətdə olan "nüvə sazişi"nin bərpası üzrə danışıqların davam etdirilməsini ciddi şəkildə çətinləşdirəcək. Başqa maneələr də var.

Sentyabrın 16-dan ölkədə Məhsa Əmininin ölümü ilə bağlı etirazlar davam edir. Bu 22 yaşlı qız şəriət geyim qaydalarına əməl etmədiyi üçün aparıldığı polis idarəsində dünyasını dəyişib. Rəsmi versiyaya görə, o, etirazçıların dəstəklədiyi qeyri-rəsmi versiyaya görə, polisin döyməsi nəticəsində infarktdan ölüb. Etirazlarda minlərlə insan, hətta məktəbli qızlar da iştirak edir. Eyni zamanda ölkədə iqtisadi nümayişlər keçirilir. Enerji sektorunda çalışan bəzi işçilər, o cümlədən neft sənayesində çalışanlar tətil edir. İranın Vyanada "nüvə sazişi" ilə bağlı danışıqlar apardığı Avropa ölkələri sanksiyalarla hədələyib. Bazar ertəsi Böyük Britaniya onları bir sıra məmurlara, o cümlədən Amininin ölümündə iştirak edən polis nümayəndələrinə və etirazçıların fikrincə, oxşar şəraitdə ölən bir neçə digər qıza qarşı tətbiq etdi.

Bütün bunlar əvvəllər İran hakimiyyətini qeyri-konstruktiv danışıqlar tərzinə görə tənqid edən Böyük Britaniya, Almaniya və Fransanın "nüvə sazişi" üzrə manevr imkanlarını azaldır. Hələ sentyabr ayında London, Berlin və Paris İranın bir sıra yeni qəbuledilməz şərtlər qoyduğunu elan etmişdilər. Bundan bir qədər əvvəl razılaşmanın yenidən başlaması o qədər yaxın görünürdü ki, İsrail onun yenilənməsinin qarşısını almağa cəhd edən sonuncu ölkə kimi görünürdü. Yəhudi dövləti Yaxın Şərqdə dost olmayan bir dövlətdə nüvə silahının yaranmasından qorxur.

Yaranan vəziyyət həm də paradoksaldır, çünki Birləşmiş Ştatlar, Qərbi Avropa və İran ümumilikdə iqtisadi səbəblərə görə "nüvə sazişini" hər gün daha çox bərpa etməlidir. İran nefti dünya bazarlarına çıxsa, Qərbin rədd etdiyi Rusiya neftini əvəz edərək enerji qiymətlərini kəskin aşağı salacaq. Amma siyasi səbəblər razılaşmaya mane olur. Bundan əlavə, Qərb əmindir ki, Tehran Moskvanı pilotsuz döyüş təyyarələri ilə, kamikadze dronlarla təmin edir ki, bu da danışıqlarda uğura mane olan mühüm amildir.

Avropa indi 100-180 nəfərin öldüyü etirazlar fonunda İran hakimiyyətinə o qədər də mehriban yanaşmır. Eyni zamanda, OPEC+ ölkələrinin neft hasilatını 2 milyon barrelə qədər azaltmaq qərarından sonra. Xüsusilə Avropa ölkələri üçün İran neftinə gündəlik tələbat artır. Lakin dekabrdan etibarən Aİ-nin Rusiya neftinin tədarükü ilə bağlı sanksiyaları qüvvəyə minib.

Qeyd edək ki, ABŞ prezidenti Cozef Bayden son hadisələri nəzərə alaraq Tehran və İran prezidenti İbrahim Rəisi ilə bağlı addımlar atmağa tələsməyəcək. Demokratlar üçün aralıq Konqres seçkiləri ərəfəsində öz mövqelərini saxlamaq vacibdir. İranlılar da çətinliklə, amma yenə də əminlik üçün bu seçkilərin nəticələrini gözləyirlər.

Sanksiyalar şəraitində sağ qala bilərsiniz, amma tam inkişaf edə bilməzsiniz. Lakin İran elitasının da sövdələşməyə fərqli baxışları var. Ona qarşı İslam İnqilabı Keşikçiləri Korpusuna yaxın qüvvələr var, çətin iqtisadi vəziyyətə baxmayaraq tərəddüd edənlər də var.

İran hakimiyyətinin etirazları yatırmaq üçün kifayət qədər imkanları olacaq, lakin qarşıdakı aylarda Qərbdə narazılıq mütləq qalacaq və bu il "nüvə sazişi"nin bağlanması istiqamətində ciddi addımlar atılmaya bilər.

**V.VƏLİYEV**

# Azerconnect şirkətində Beynəlxalq Qızlar Günü münasibətilə görüş keçirilib



11 Oktyabr - Beynəlxalq Qızlar Günü münasibətilə keçirilən kampaniya çərçivəsində bir qrup fəal gənc qızların Azerconnect şirkətinə tanışlıq səfəri təşkil olunub. Ölkənin IT xidmətləri, kommunikasiya və yüksək texnologiyalar sahəsində lider şirkətlərdən biri olan Azerconnect-in fəaliyyəti barədə kampaniya iştirakçılarına ətraflı məlumat verilib.

Tədbir iştirakçıları Azerconnect şirkətində gender bərabərliyinin təşviqi, şirkət tərəfindən qadınların liderlik bacarıqlarının inkişafı, cəmiyyətdə gənc qızların və qadınların İKT sahəsinə maraqlarının artırılması üzrə görülən işlər, planlaşdırılan fərqli maarifləndirici layihələr ilə tanış olub, şirkətin rəhbər şəxsləri ilə onları maraqlandıran suallar ətrafında müzakirələr aparıblar.

Ümumilikdə tədbirdə həssas əhali qruplarından (şəhid övladları, əlilliyi olan şəxslər, valideyn himayəsindən məhrum gənclər, internat məktəblərində təhsil alanlar) olan qızlar da daxil olmaqla 13-17 yaş arası 22 nəfər iştirak edib. 6-11 oktyabr tarixlərində kampaniyada iştirak edən qızlar Milli Məclis, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, BMT-nin Əhali Fondunun Azərbaycan nümayəndəliyi, ADA Universiteti, "Azerconnect" və "AzerTelecom" şirkətlərini ziyarət ediblər.

Qeyd edək ki, kampaniya Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin Əhali Fondunun (UNFPA) icra etdiyi "Cənubi Qafqazda gender əsaslı cins seçimi və digər zərərli təcrübələrin aradan qaldırılması" və UNFPA və BMT-nin Qadınlar üzrə Agentliyi (UN Women) tərəfindən həyata keçirilən "Avropa İttifaqı gender bərabərliyi naminə: birlikdə gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı" proqramları çərçivəsində "Regional İnkişaf" İctimai Birliyi tərəfindən keçirilir. Kampaniyada fəal gənc qızların paytaxtda fəaliyyət göstərən hökumət və özəl qurumlara tanışlıq səfərləri təşkil olunur.

Azerconnect şirkəti ölkənin dinamik şəkildə inkişaf edən informasiya, kommunikasiya və yüksək texnologiyalar sahəsində müxtəlif xidmətlər təqdim edən ilk B2B (Business to Business-Biznesdən biznesə) şirkətdir. Azerconnect müxtəlif sahələrdə və ölkələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# AzerTelecom Avropaya rəqəmsal dəhlizin yaradılması üzrə TTI ilə müqavilə imzaladı

***Azərbaycanın və Türkiyənin aparıcı telekommunikasiya şirkətləri "AzerTelecom" və "Türk Telecom International" (TTI) Azərbaycandan Avropaya Türkiyə vasitəsilə rəqəmsal dəhlizin əsasını yaradan ilkin 200 Gbit/s həcmində tranzit tutumun alınması ilə bağlı müqavilə imzalayıb.***

"AzerTelecom" şirkətinin Qərb və Şimal istiqamətlərində şaxələndirilmiş təchizat marşrutlarına əlavə olaraq, "Türk Telecom International" ilə yeni əməkdaşlıq Türkiyə və Avropa istiqamətində daha bir alternativ rəqəmsal tranzit dəhlizinin yaranmasına imkan verir. Tərəflər buna qədər bir çox rabitə xidmətlərinin mübadiləsi, o cümlədən Azərbaycanın Naxçıvan regionunun Türkiyə vasitəsilə məlumat və səs ötürülməsi də daxil olmaqla sabit, dayanıqlı və təhlükəsiz bağlantı xidmətləri ilə təmin olunması sahəsində əməkdaşlıq əlaqələrini qurublar.

Yeni məlumat ötürmə tutumunun alınması və bağlantı marşrutu "AzerTelecom" şirkətinin Azərbaycan vasitəsilə Şərq-Qərb arasında rəqəmsal telekommunikasiya dəhlizinin qurulmasını hədəfləyən strateji və irimiqyaslı "Rəqəmsal İpək Yolu" layihəsinin bir hissəsidir.

"Türk Telecom International" şirkəti ilə yeni tərəfdaşlıq Şərq və Qərb arasında əlçatanlığın və bağlantının gücləndirilməsində Azərbaycanın daha bir mühüm regional uğurudur. Müxtəlif çağırışlarla zəngin olan dövrdə bu əməkdaşlıq ölkələr arasında və regionda kommunikasiya xidmətlərinin dayanıqlığını artırmaq və təkmilləşdirmək üçün yeni imkanlar yaradacaq.

"AzerTelecom" Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur. Şirkət enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sənayesi üzrə səkkiz ölkədə fəaliyyət göstərən "NEQSOL Holding" çoxşaxəli şirkətlər qrupunun tərkibinə daxildir. "AzerTelecom" Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. "Türk Telekom International" Mərkəzi və Şərqi Avropa regionunda, Türkiyə, Qafqaz, Yaxın Şərq və Asiyada fəaliyyət göstərən aparıcı telekommunikasiya operatorudur.

Türk Telekom International" mövcud şirkətlərə, alternativ operatorlara, mobil operatorlara, kabel televiziyası şirkətlərinə, internet provayderlərinə və korporativ müştərilərə tam çeşiddə İnternet/data xidmətləri, infrastruktur və topdansatış səs xidmətləri təqdim edir.

Digital Silk Way | Türk Telekom International



## Telefonomaniya xəstəliyi: xilas yolu nədir?

**Elçin Bayramlı**

***İfrat elektronika asılılığının sağlamlığa ciddi zərərləri olduğu elm tərəfindən təsdiq olunub. Belə bir deyim var-texnologiya bizi istifadə etməsin, biz texnologiyanı istifadə edək! Bu deyim ən çox da mobil telefon sektoruna aiddir. Adi müşahidələr zamanı əksər insanların, xüsusilə də, gənclərin texnoloji məhsulları başqalarına nümayiş etdirmək, onunla öyünmək üçün aldıqları görünür.***

"Qonşudan qalma geri" misalı yenicə bazara çıxan bahalı bir cib telefonunu, ailəsinin ya da özünün iqtisadi imkanlarını "zorlayaraq" satın alan, uzun aylar kredit borcu ödəməyə məcbur qalanları hamımız tanıyırıq.

Bu telefonun funksiyalarının çoxundan istifadə edə də bilmir. Lakin, yeri gəldi-gəlmədi onu çıxarıb nümayiş etdirmək, maqnitofon, ya da fotoaparat əvəzi istifadə etmək ona adi gəlir.

Tez-tez modelləri dəyişən smartfonları ehtiyac oldu olmadı almaq konkret psixi problem və bir növ narkomaniyadır. Bəzən insanlarımız 1-ci 2-ci 3-cü 5-ci dərəcəli problemlərini kənara qoyub bütün pullarını 10-cu dərəcəli olan yeni smartfon almağa xərcləyir, çoxu kreditə girir və sonradan problem yaşayır. Smartfon və proqram təminatı istehsalçıları elə bir sistem qurmağa çalışırlar ki, insanlar bütün günü internetdən ayrıla bilməsinlər. Müşahidələr göstərir ki, çox az adam smartfondan faydalı işlər üçün istifadə edir. Habuki, internet dünyasında faydalı resursların sayı hesabı yoxdur.

Məsələnin tibbi və sağlamlıq tərəfi də var. Mobil telefonların hormonal balanssızlıqlara və xərçəngə səbəb olduğunu göstərən onlarla elmi araşdırma var. Lakin iri telefon şirkətlərinin təzyiqi və təsiri ilə bir çox elmi institutlar, hətta Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssisləri belə bunu etiraf etməkdən çəkinirlər.

İsveç, Rusiya və Kanada alimlərinin müxtəlif vaxtlarda apardığı araşdırmalar mobil telefonla 2 dəqiqəlik danışığın belə "azheymer", "parkinson", beyin xərçəngi və "multiskleroz" kimi sinir xəstəlikləri yarada bildiyini, genetik dəyişikliyə, yuxusuzluğa, cinsi zəifliyə, sonsuzluğa səbəb olduğunu ortaya çıxardı.

Əlbəttə, bütün bu təhlükələrə baxmayaraq, smartfonlardan imtina etmək mümkün deyil, amma bəzi qaydalara əməl etməklə zərəri azaltmaq olar. Məsələn, danışıq zamanı aparatı başınızdan mümkün qədər uzaqda olmasına çalışmaq lazımdır. Mümkün qədər qısa danışmaq, telefonu arada sağ və sol tərəfə keçirmək lazımdır. Gecə yataq otağında telefon mütləq söndürülmüş olmalıdır. Dalğa zəif olanda və nəqliyyatla hərəkətdə olarkən telefondan istifadə etməmək lazmdır, çünki bu halda radiasiya min dəfə artır. Qanın tərkibində aparılan müayinələrdən bəlli olur ki, maqnit dalğalar erositlərin çökməsinə səbəb olur.

Problemin daha bir tərəfi isə mənəvi məsələlərdir. Azad internet açıq şəkildə psixtron terror, mənəvi deqradasiya platformasıdır. Bura cəmiyyət üçün təhlükə yaradan saxta məlumatlardan tutmuş, hər cür zorakılıq, intihar, zorlama, qətl və sair dəhşətli materiallarla doludur.

Xüsusilə də, uşaqlar mobil telefondan aralı tutulmalıdır. İnternet oyunlarının, bir çox videoların uşaqlarda çox ciddi mənəvi-psixoloji travma yaratdığı faktdır. Son dövr uşaqlarının hddən artıq əsəbi, aqressiv, söz dinləməyən və hegemon xarakterdə olmasında internetin əvəzedilməz xidmətləri vardır.

Bu səbəbdən mən hesab edirəm ki, xüsusən uşaqlara 16 yaşadək smartfon verilməməlidir. Yalnız sadə telefon vermək olar. Uşaqlar internetdən valideynlərin telefonu və ya komputer vasitəsilə valideynin nəzarəti altında yalnız bilik almaq üçün istifadə etməlidir.

İnternet bıçaq kimidir, onun vasitəsilə minlərlə peşəni, işi, xarici dili öyrənmək də mümkündür, vaxtı mənasız əyləncələrə, zərərli materiallara sərf etmək də. Ağıllı adamlar faydalı tərəflərindən bəhrələnməyə çalışır. Ən son texnologiyalı cihazın sizdə olması vacib deyil. Əvvəlcə baxmalısınız- sizin bahalı smartfona nə dərəcədə ehtiyacınız var- əgər eyni işləri dəfələrlə ucuz cihazda da etmək mümkündürsə. Obrazlı desək, "saqqalınız yoxdursa, saqqal darağına pul verməyə dəyməz".



Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" çərçivəsində hazırlanıb.***

# Zeytunçuluq: Potensial və perspektivlər nə vəd edir?



*Bu sahəyə dövlət dəstəyi güclənməli, böyük sahələrdə bağlar salınmalı, məhsulların yerli və xarici bazara çıxışı artırılmaldır.*

Azərbaycan iqtisadiyyatının aqrar sektorunda ən unikal və perspektivli sahələrdən biri də zeytunçuluqdur. Çox qədimlərdən Azərbaycanda yetişdirilən zeytun təkcə qida vasitəsi deyil, həm də dərman vasitəsidir. Bol məhsul verməsi, dözümlü, uzunömürlü olan bu bitki bol məhsul verməsi ilə seçilir. Azərbaycanda zeytunçuluğun böyük potensialı var, lakin təəssüf ki, hələlik bu potensialdan tam istifadə edilmir. Bəs zeytunçuluq iqtisadi baxımdan nə vəd edir, bu sahədə hansı problemlər, hansı perspektivlər var? Bu yazımızda həmin suallara cavab axtarmışıq.

## Azərbaycanda zeytunçuluğun iqtisadi əhəmiyyəti

Zeytun sənaye əhəmiyyətli spesifik bir sahə olaraq dünyanın bəzi ölkələrində mühüm gəlir mənbəyidir. Zeytun bağları sahəsinə və istehsal həcminə görə ən böyük 5 ölkə İspaniya, İtaliya, Yunanıstan, Tunis və Suriyadır. Bu ölkələr zeytun meyvəsindən və onun emalından yüz milyonlarla gəlir əldə edirlər.

Respublikamızda zeytunçuluq üzrə ilk təsərrüfat 1949-cu ildə Zığda təşkil edilib. Abşeron Zeytun Sovxozuna məxsus bu bağdan 1955-ci ildə 7 tona qədər meyvə yığılmışdı. 80-ci illərdə zeytun bağlarından ildə təxminən 2000 tona yaxın məhsul yığılırdı. Həmin dövrdə Azərbaycanda zeytun bağlarının ümumi sahəsi 3 min hektar təşkil edib.

Lakin, Sovet İttiqafının süqutundan sonra- 90-cı illərində digər istehsal sahələri kimi, zeytunçuluq da tənəzzülə uğradı. Belə ki, torpaqlar özəlləşdirildikdən sonra zeytun ağaclarının xeyli hissəsi sıradan çıxarıldı və yerdə qalan bağların məhsuldarlığı da qayğısızlıq ucbatından aşağı düşdü. Zeytun bağlarının tutduğu ərazi yarıbayarı azaldı. Nəticədə Abşeronda 1500 hektar zeytun bağı qalmışdı.

Zeytun bağlarında hər hektardan məhsuldarlıq 10 sentner civarındadır. Abşeron rayonunda isə hər hektardan məhsuldarlıq 20 sentner civarında olur.



Dünya bazarında zeytun yağının tonu 5 min dollardan bahadır. Azərbaycan da bu bazara daxil ola, həm yerli tələbatı ödəyə, həm də ixrac edə bilər. Zeytun yağından illik olaraq 1 milyard ABŞ dolları gəlir əldə etmək üçün Azərbaycanda təxminən 150 min hektar ərazidə zeytun bağları salmaq lazımdır. Qeyd edək ki, ölkədə pambıq əkinləri 140 min hektara yaxındır və bunu zeytunla əvəzləmək həm iqtisadi, həm ekoloji cəhətdən faydalı olar. Əlavə olaraq, subtropik və aran zonalarındakı boş ərazilərdə belə bağları salmaq mümkündür. Xüsusən də qeyd etmək lazımdır ki, zeytun ağacları 1500-2000 il yaşayır.

Hazırda Azərbaycanda 2000 hektara yaxın zeytun sahəsi var. Bunun 1700 hektara yaxını bar verir. İldə 1000 tondan artıq ton zeytun yağı istehsal olunur. Azərbaycan istehsalı zeytun məhsulları xarici ölkələrdə də göndərilir.

## Zeytunçuluğun inkişafını sürətləndirmək üçün nə etməli?

Fikrimizcə, emalın genişləndirilməsi, istehsalın artması üçün köhnə bağların bərpası da efektiv ola bilər. Təəsüflər olsun ki, bir çox sahələrdə məhsuldar ağaclar qırılaraq yaşayış yeri inşa edilib, kafe və ya restoran tikilib. Bu sahə gəlir səviyyəsinə görə yüksəkdir, ona görə də bu sahəyə daha çox qayğı göstərmək lazımdır, nəinki ağacları məhv edib yerində tikililər inşa etmək.

Zeytunçuluğun inkişafı üçün böyük sahələr lazımdır. Kiçik torpaq sahələrində zeytunçuluğu inkişaf etdirmək səmərə verməz, ona görə ki, yağ əldə etmək üçün gərək onu yığdırıb emal etdirəsən. Bizim bir çox fermerin emal etmək üçün imkanı və şəraiti yoxdur. Belə olanda pay torpağında istehsal az olur və burda qazancı daha çox emalla məşğul alan sahibkar qazanacaq.

Kiçik sahələrdə zeytun əkənlər onu turşu kimi qoyub satırlar. Özü də elə də ucuz deyil- mağazalarda kq-i 10-15 manat arasında satılır. Demək bu meyvəçilikdə ən gəlirli sahələrdən biridir.

Ona görə də, bu sahədə dövlət dəstəyi güclənməlidir. Bu sahəyə subsidiya verilməli, öznüməşğulluq proqramı çərçivəsində müəyyən qədər torpaq sahəsi olanlara pulsuz tinglər verilməlidir. Çünki bu sahə əhalinin məşğulluğunu təmin edəcək. Burda həm bağbanlar özünə iş tapa bilər, həm emal sahəsində işlər yaranar, məhsulun satışını həyata keçirə biləcək insanlar bu işə cəlb oluna bilər. Hökumət zeytunçuluğun inkişafı üçün xüsusi proqram qəbul etməlidir.

## Bizim üçün böyük bazar var, o bazarda möhkəmlənməliyik

Rusiya bazarında zeytun məhsulları ixracı üzrə SSRİ respublikaları arasında Azərbaycanın payı 80 faizdir. Digər ölkələrin ümumilikdə payına isə 20 faiz düşür. Bu da onu göstərir ki, digər ölkələrdə zeytunçuluq elə də inkişaf etməyib. Bizim artıq bazarımız var, qalır bu bazarda daha böyük nailliyyət əldə etmək. Bunun üçün bizə bu sahəni genişləndirmək, məhsuldarlığı artırmaq lazımdır.

Böyük miqyasda zeytun bağları salınsa bunun ekologiyamıza da müsbət təsirləri olar. Çünki bu, sadəcə bir gəlirli təsərrüfat sahəsi deyil, həm də böyük bir meşədir. Zeytun Azərbaycanın iqlim şəraitinə yaxşı uyğunlaşır və dözümlüdür. Küləyə və istiyə dözür. Emal olunan məhsullardan həm qidalanmada, həm də əczaçılıqda istifadə edilir.

Mağazalarda apardığımız müşahidələr, satıcılarla söhbətimiz göstərdi ki, son vaxtlar yerli zeytun məhsullarına maraq artıb. Buna bir sıra mühüm faktorlar təsir göstərir. Əvvəla, yerli zeytun yağı və konservləşdirilmiş meyvəsi xarici analoqlarından 50 faiz ucuzdur. Məsələn, 1 litrlik yerli yağlar 10 manat aralığında satılır, xarici yağların qiyməti isə 15 manatdan başlayır. Eləcə də, turşuya qoyulmuş xarici zeytun meyvəsinin kq-ı 10-15 manat arasındadır, yerli zeytunda isə qiymət 5-10 manat arasındadır.

Zeytunçuluğu gəlirli sahəyə çevirmək mümkündür

Azərbaycanın dünya bazarına ekoloji cəhətdən təmiz zeytun məhsulları ilə daha böyük miqyasda çıxması üçün çox gözəl perspektivi var. İnsanlar ekoloji cəhətdən təmiz olan məhsul istəyir və bizim də buna imkanımız var.

Düzdür, Abşeron torpağı zəif torpaq hesab olunur, ona görə də biz çalışmalıyıq ki, bu torpaqda qida elementlərini artıraq. Buna da üzvü gübrələrin verilməsi hesabına nail olmaq olar. Bitki qalıqlarını yığıb onların çürüdülməsini həyata keçirmək və onu zeytun bağlarına vermək lazımdır ki, torpaqda olan mikroorqanizmlər həmin üzvü maddələri qeyri-üzvü minerallara çevirib bitkiyə ötürə bilsin.

Bəzən deyilir ki, Azərbaycan rəqabət qabiliyyətli məhsul istehsal edə bilmir, amma bunu etmək üçün bizim kifayət qədər potensialımız var, bunun üçün fermerlərə istiqamət verməli, yönləndirməliyik.

Ümumi müşahidələrə görə də, yerli bazarda yerli məhsula tələbat getdikcə artır. Deməli, zeytunçuluğu daha da inkişaf etdirməklə bu sahədə idxala son qoymaq, əhalini daha keyfiyyətli, daha ucuz zeytun yağı və konservləri ilə təmin etmək olar ki, bu da öz növbəsində həm bu sektordan gələn gəlirlərin artmasına, həm də bazarda ucuzluğun yaranmasına səbəb olacaq.

Bundan ən çox bəhrələnən ilk növbədə təbii ki ölkə əhalisi olacaq. Keyfiyyətli, zəngin tərkibli, müalicəvi zeytun meyvəsi və yağı ilə qidalanmaq insanlarımızın sağlamlığına öz müsbət təsirini göstərəcək. Son nəticədə isə bu ölkə iqtisadiyyatının qeyri-neft sektorunda əhəmiyyətli və perspektivli bir sahənin inkişafına öz töhfəsini verəcək.

**_Elçin Bayramlı_**

ARAŞDIRMA

SON SƏHİFƏ
SƏS
13 oktyabr
2022-ci il

# Bakıda avtomobildən 40 min dollar oğurlanıb

Bakıda avtomobildən 40 000 dollar oğurlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Sabunçu Rayon Polis İdarəsinin 15-ci Polis Bölməsinə Kürdəxanı qəsəbəsi ərazisindəki dayanacaqların birində "KİA" markalı avtomobildən 40 000 ABŞ dollarının oğurlanması barədə müraciət daxil olub.



Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Nardaran qəsəbə sakinləri Mirzəhəsən Kazımov və Vüqar Əsgərov müəyyən olunaraq saxlanılıblar. Araşdırma aparılır.

# Kitab yarmarkalarının əhəmiyyəti nədir?

***Dünyada texniki üsulla kitab çapının meydana gəldiyi ilk vaxtlardan bu çap nümunələrinin satışı da təşəkkül tapmağa başlayıb. Hələ XVI- XVII əsrlərdə kitab çapının vətəni Almaniyada - Frankfurt və Leypsiqdə kitab yarmarkaları təşkil edilirdi. Bugünkü kitab yarmarkalarının tarixi isə 1949-cu ildə təşkil olunan Frankfurt yarmarkasından hesablanır. O vaxtdan başlayaraq hər il dünyanın müxtəlif ölkələrində beynəlxalq kitab yarmarkaları keçirilir. Bu tədbirlərdə müxtəlif ölkələrdən gələn naşirlər, yazıçılar, tərcüməçilər, kitabxana işçiləri poliqrafiyanın son nailiyyətləri ilə tanış olur, fikir mübadiləsi aparırlar. Bu yarmarkaların ikisi - Frankfurt və Qahirə kitab yarmarkaları öz möhtəşəmliyi və rəngarəngliyi ilə seçilir.***



Qahirədə ilk beynəlxalq kitab yarmarkası 1969-cu ildə - Misir paytaxtının 1000 illiyi münasibətilə təşkil olunub. Hər ilin yanvar-fevralında keçirilən yarmarkanın təşkilatçısı Misir Baş Kitab Təşkilatıdır. İki həftə davam edən kitab nümayişinə 2 milyondan çox adam və minlərlə kitab ticarətçisi gəlir.

Bundan əlavə, hər il Leypsiq, London, Paris, Kvebek, Buenos-Ayres, Moskva, Sankt-Peterburq, Minsk, Vilnüs, Əbu-Dabi, Pekin - ümumilikdə dünyanın 30-dan çox şəhərində beynəlxalq kitab sərgi-yarmarkaları keçirilir. Artıq iki ildir ki, bu şəhərlərin sırasına Bakı da qoşulub.

Statistikaya görə, insan ömrü boyu orta hesabla minə yaxın kitab oxuyur, amma ədəbiyyatla heç maraqlanmayanlar da var. Bu cür laqeydliyin səbəbləri tamamilə fərqli ola bilər, amma nəticə eynidir və təəssüf ki, heç də sevindirici deyil. Müxtəlif ölkələrin psixoloqları və sosioloqları əmindirlər ki, oxumaqdan könüllü imtina edən insan özünü bir çox üstünlüklərdən məhrum edir.

Həyat bizi təklif olunan şərtlərə uyğunlaşmağa məcbur edir və çox vaxt yalnız illər ərzində qazanılan bacarıq və biliklər onların öhdəsindən gəlməyə kömək edir. Müasir dünyanın bizə çoxlu alternativ məlumat mənbələri təklif etməsinə baxmayaraq, kitablar hələ də onların ən yaxşısıdır. Onların sayəsində nəinki yeni bir şey öyrənə bilərik, həm də müəyyən bir fenomeni keyfiyyətcə təhlil etməyi öyrənə biləcəyik.

Həyatımız çox qızğın olanda, müharibə alovlananda kitab yaddan çıxır. Pandemiyanın başlanğıcında demişdilər ki, ərzaq yoxa çıxacaq, həmin vaxtlarda ümumiyyətlə, kitab satılmadı, hamı ərzaq aldı. Bəzən həddindən artıq korrupsiyalaşmış cəmiyyətlərdə kitab arxa plana keçir.

## Bizdə kitaba niyə meyil artır?

Çünki nisbətən korrupsiyaçılıq aradan qaldırılır və adamlar hesab edir ki, təhsil almaqla onlar irəli çəkilə, uğurlu iş qura bilərlər. Ona görə də mütaliəyəyə üstünlük verirlər, amma əvvəllər belə deyildi. Britaniyalı alimlər müəyyən ediblər ki, zehni qabiliyyətlərimiz ömür boyu oxunan kitabların həcmindən birbaşa asılıdır.

Kino sənəti bizim təxəyyülümüzü tam gücü ilə işləmək imkanından məhrum edir - rejissorlar və prodüsserlər bizim mətnin vizuallaşdırılmasının qayğısına qalırlar. Kitablara gəlincə, oxucu öz təxəyyülünü işə salmalı və müəllifin təklif etdikləri əsasında sözün əsl mənasında öz dünyalarını yaratmalıdır. Oxumaq təkcə müxtəlif sahələrdə biliklərimizi genişləndirmir, həm də yaradıcılığı və lateral düşüncəni inkişaf etdirməyə imkan verir.

Kitab yarmarkaları bazarın çap kitabları ilə doyduğu vaxtdan bəri var. Kitab paylama formasının özəlliyi təkcə satış deyil, həm də kitabların və mütaliələrin təbliğidir. Yarmarka kitabsevərlər, yazıçılar və nəşriyyatlar üçün böyük bayramdır. Onlar adətən bir neçə gün ərzində keçirilir. Yarmarkalar beynəlxalq, respublika, regional xarakter daşıyır. Onların səviyyəsi iştirakçıların tərkibindən və sərgilənən kitab məhsulları nümunələrinin sayından asılıdır. Onların formaları çox müxtəlif və maraqlıdır. Yarmarkalar ticarət müqavilələrinin və sövdələşmələrinin aparıldığı, təqdimatların, populyarlıq reytinqlərinin və daha çoxunun keçirildiyi yerdir və bu, tədqiqat üçün seçilmiş mövzunun aktuallığıdır. Tədqiqatın məqsədi: kitab ticarətinin inkişafı, kitab və mütaliənin təbliği üçün kitab sərgilərinin əhəmiyyətini müəyyən etməkdir.

Azərbaycan paytaxtında da kitab sərgi-yarmarkaları keçirilir. Sərgi-yarmarkalarda nəşriyyatlar buraxdıqları nəşrləri nümayiş etdirmək, satmaq, iştirakçı xarici nəşriyyatlar, müəlliflər və milli nəşriyyat-poliqrafiya müəssisələri ilə danışıqlar aparmaq, müqavilələr bağlamaq imkanı əldə edirlər. Yarmarka bir növ tribunaya çevrilir. Ədəbi aləmin nümayəndələri, naşirlər yarmarkaya həvəslə qatılırlar.

## Bəs kitab yarmarkasının ədəbi aləmdə yaratdığı dəyişiklik nədir?

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2022-ci il, 5-9 Oktyabr tarixində Bakı Ekspo mərkəzində, 8-ci Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçirilib.

Sərgi-yarmarka zamanı 5 gün boyunca çoxsaylı yerli və xarici nəşriyyatlar, poliqrafiya müəssisələri və kitab evlərinin iştirak edib. İştirakçılar Sərgi-yarmarkada çap məhsullarını nümayiş etdirmək, satmaq, yerli və xarici nəşriyyatlar, müəlliflər və milli nəşriyyat-poliqrafiya müəssisələri ilə danışıqlar aparmaq, müqavilələr bağlamaq imkanı qazanıblar.

Sərginin məqsədləri:

Yerli əhali arasında mütaliə mədəniyyətin təşviqi.

Yazıçılar və oxucular arasında görüşlər üçün platformanın yaradılması.

Yazıçı və nəşriyyatların arasında işgüzar münasibətlər qurulması üçün fürsətlərin yaradılması.

Kitab biznesının inkişafı

Sərgi ziyarətçilərinə məlumat verməklə müasir ədəbiyyatın və müəlliflərin təbliğatı.

Ünsiyyət və təcrübə mübadiləsi vasitəsilə, gənc yazıçıların bilik və bacarıq səviyyələrinin artırılması və s aiddir.

***Havar Şəfiyeva***

ARAŞDIRMA

# "Görün nəyi qızıma aid edirlər! Dəlidirlər, normal deyillər!"



***Hülya Avşar ötən gün məkan çıxışında müxbirlərin suallarını cavablandırıb.***

Milli.az xəbər verir ki, sənətçi qızı Zehra Çilingiroğlu ilə Mehmet Dinçerlerin eşq yaşadığı iddialarına isə sərt reaksiya verib.

"Belə bir əxlaqsızlıq ola bilər? Qızımı belə bir şeyi yaraşdırırsınız? Məncə, bu xəbəri yazanlarda problem var. Təbii ki, onları məhkəməyə verdim. Görün nəyi qızıma aid edirlər! Dəlidirlər, normal deyillər!".

Xatırladaq ki, "Beyaz Magazin" verilişi cütlüyün eşq yaşadığını iddia etmişdi. Daha sora Zehra açıqlama verərək xəbəri təkzib etmişdi.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**